# Aydın Yol

Azərbaycan Tərcümə Mərkəzi




www.aydinyol.az

26 avqust 2016-cı il № 29 (88) * Həftəlik ədəbi-ictimai qəzet * Qiyməti 30 qəpik


Mövlud Süleymanlı

“Ağlıma gəlməzdi ki, “Dəyirman”a belə hücumlar ola bilər...”

səhifə 6



Məmməd Arazın şeirləri

səhifə 12



Alberto Moravianın “Qüsursuz qətl”i

səhifə 13

## Zamanı yüz illərlə qabaqlayan müalicə üsulları



# Orta əsrlərdə Azərbaycan səhiyyəsi

səhifə 10

## Olum və ölüm rəqsi



səhifə 5

## Markesin şəkli əks olunan əsginaslar



səhifə 16

## ANONS

*Bakıda Üzeyir Hacıbəyli VIII Beynəlxalq Musiqi Festivalı keçiriləcək* — səhifə 3

*Azərbaycanlı musiqiçinin Parisdə konserti olacaq* — səhifə 3

*Orfoqrafiya lüğətindən çıxarılan sözlərin təsnifatının davamı* — səhifə 4

*Torpaq adamı* — səhifə 5

*Əsirlikdən xilas etdiyim kitablar* — səhifə 7

*İkinci doğum günü* — səhifə 7

*Səssiz kinomuzun son bədii filmləri* — səhifə 11

*İlk universitet harda və nə vaxt yaranıb?* — səhifə 14

*Argentina məhkəməsi Federiko Lorkanın ölüm səbəbini araşdırır* — səhifə 16

*Roulinq kitabına çəkdiyi rəsmlərini təqdim etdi* — səhifə 16

*Fredrik Beqbeder Ukrayna forumuna gələcək* — səhifə 16

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin toplantısında Avropanın problemləri müzakirə ediləcək



**Dünyanın tanınmış siyasətçiləri Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin IX Ali səviyyəli toplantısında Avropanın problemlərini müzakirə edəcəklər.**

Diasporla İş Üzrə Dövlət Komitəsindən AzərTAc-a bildiriblər ki, beşinci Qlobal Bakı Forumuna hazırlıq məqsədi daşıyan və noyabrın 22-23-də Bosniya və Herseqovinada keçiriləcək toplantıda bu ölkənin Rəyasət Heyətinin üzvü Mladen İvaniç, Bolqarıstan Prezidenti Posen Plevneliyev, Makedoniya Prezidenti George İvanov, Monteneqro Prezidenti Filip Vuyanoviç, Albaniya Prezidenti Buyar Nişani iştirak edəcəklər. Bundan başqa, Xorvatiya, Ruminiya, Sloveniya, Serbiya və Yunanıstanın da hazırkı dövlət başçılarının iştirakı gözlənilir. Ümumilikdə isə toplantıya Andorra, Belçika, Bolqarıstan, Amerika Birləşmiş Ştatları, Latviya, Fransa, Almaniya və digər ölkələr də daxil olmaqla 50-dən çox hazırkı və sabiq dövlət rəhbəri, nüfuzlu siyasətçilər qatılacaq. Tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və digər dini konfessiyaların rəhbərləri daxil olmaqla Azərbaycan nümayəndə heyətinin də iştirakı planlaşdırılır.

Toplantıda "Avropada sülh: hamı üçün qəbul olunan güclü birliyə necə nail olmaq mümkündür?" mövzusu çərçivəsində Bosniya və Herseqovinanın müstəqilliyinə həsr edilən Dayton sülh razılaşmasından keçən 20 il ərzindəki vəziyyət, Balkanlar üçün Avropa gələcəyinin mövcudluğu, Avropanın yeni xəritəsi, dünyaya necə Avropa lazımdır, Avropada multikulturalizmi bərpa etməyin yolları kimi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılacaq.

Tədbirdə Azərbaycanın multikulturalizminə, uzun illərə söykənən dinlərarası tolerantlıq təcrübəsinə və onun Avropa üçün əhəmiyyətinə dair çıxışlar da nəzərdə tutulub.

Toplantıda, həmçinin gələn il keçiriləcək beşinci Qlobal Bakı Forumuna hazırlıq məsələləri, forumun gündəliyi, onun yüksək səviyyədə keçirilməsi üçün tədbirlər müəyyənləşdiriləcək, növbəti hazırlıq iclaslarının yeri və vaxtı dəqiqləşdiriləcək.

# "Açıq kitab" online mütaliəçilərin portalıdır!

**ARNK yanında Tərcümə Mərkəzinin "Açıq kitab" online kitabxanası Azərbaycan, rus və digər xarici dillərdə yüzlərlə klassik, müasir bədii ədəbiyyat nümunələrinin, mətn və materialların, lüğətlərin, müxtəlif sahələrə dair elmi, publisistik ədəbiyyatların, dünya dillərinə tərcümə edilmiş Azərbaycan ədəbiyyatının, həmçinin Azərbaycan dilinə tərcümə edilmiş dünya ədəbiyyatlarının elektron versiyasını mütəmadi olaraq, pulsuz yayımlayır.**

**Kitabxana vasitəsi ilə Tərcümə Mərkəzinin "Xəzər" dünya ədəbiyyatı jurnalının və "Aydın yol" qəzetinin dövri saylarını da pulsuz əldə edə bilərsiniz. Bunun üçün www.achiqkitab.az ünvanlı kitabxanaya daxil olmaqla yüzlərlə nəşri ödənişsiz əldə etmək olar!**

**Onu da qeyd edək ki, artıq onlayn kitabxanamızın rus dilli versiyası da fəaliyyət göstərir.**

**Təsisçi:** *Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi*
**Baş redaktor:** Yaşar Əliyev
**İcraçı direktor:** Bəhlul Seyfəddinoğlu
**Redaksiya heyəti:** Nəriman Əbdülrəhmanlı, Feyziyyə, Narıngül Əliyeva, Rəbiqə Nazimqızı
Qəzet 2014-cü ilin 24 oktyabrından çıxır.
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 1250. **Sifariş:** 2356
**Ünvan:** Bakı, Topçubaşov küçəsi 74.
**Telefon:** 595 16 05.
**E-mail:** aydinyol.az@gmail.com
*Qəzet Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.*
**Şəhadətnamə nömrəsi:** 3899

**Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu "Əl-Fəcr" qəzetinin 24 avqust tarixli nömrəsində nəşrin baş redaktoru Şərif Əl-Bəsilin "Azərbaycanın birinci xanımı Mehriban Əliyeva. Müxtəlif sahələrdə hədsiz töhfələr" sərlövhəli məqaləsi (www.alfajr-news.net/node/119069) dərc olunub.**

Baş redaktor Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın intellektual və mədəni dəyərlərin hökm sürdüyü ailədə dünyaya göz açıb tərbiyə aldığını oxucuların diqqətinə çatdıraraq, valideynləri haqqında qısa məlumat təqdim edib. Yazıb ki, tanınmış Azərbaycan yazıçısı Mir Cəlal Paşayevin nəvəsi olan birinci xanımın atası akademik Arif Paşayev fizika sahəsində görkəmli alimdir və 1996-cı ildən Azərbaycan Milli Aviasiya Akademiyasının rektorudur. Mehriban Əliyevanın anası Aida İmanquliyeva ərəb məhcər ədəbiyyatının tədqiqi sahəsində böyük uğurlar qazanan şərqşünas alim olub.

Sonra Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən söhbət açan müəllif onun bilavasitə rəhbərliyi və təşəbbüsü ilə həyata keçirilən layihələrin, həmçinin fəal parlament fəaliyyətinin istər ölkə daxilində, istərsə də xaricdə böyük rəğbət qazandığını xüsusi vurğulayıb. Birinci xanımın 1995-ci ildə təsis etdiyi Azərbaycan Mədəniyyət Fondu və 2004-cü ildən rəhbəri olduğu Heydər Əliyev Fondu tərəfindən ölkənin mədəni irsinin geniş şəkildə təbliğ edildiyi, ələlxüsus da Heydər Əliyev Fondunun respublikanın daxilində və xaricdə çox önəmli sosial və mədəni layihələr həyata keçirdiyi diqqətə çatdırılıb.

Mehriban Əliyevanın xeyriyyəçilik fəaliyyətində uşaqlara və yaşlı insanlara qayğının xüsusi yer tutduğunu önə çəkən müəllif onların qarşılaşdıqları problemlərin aradan qaldırılması üçün mühüm işlər görüldüyünü bildirib, yeni məktəb, xəstəxana binalarının, musiqi tədris müəssisələrinin inşa olunduğunu, Respublika Talassemiya Mərkəzində keçirilən qan donorluğu, habelə ana südü ilə qidalandırma üzrə maarifləndirmə aksiyalarını, eləcə də xüsusi ehtiyacı olan uşaqlar üçün yay düşərgələrinin təşkilini misal çəkib, ahıllara istər tibbi, istərsə də maddi yardım göstərildiyini qeyd edib.

Zəngin milli musiqi irsimizin təbliği ilə bağlı işlərə toxunan baş redaktor ilk növbədə Heydər Əliyev Fondunun dəstəyi ilə müasir Muğam Mərkəzinin inşasının Azərbaycan muğamına yeni nəfəs gətirdiyini önə çəkib, bu xalq musiqisinin Fondun xətti ilə xarici ölkələrdə təşkil edilən mədəniyyət tədbirlərində xüsusi yer tutduğunu qeyd edib. Həmçinin dünyanın müxtəlif ölkələrindən istedadlı musiqiçilərin iştirak etdikləri Beynəlxalq Qəbələ Musiqi Festivalının müntəzəm şəkildə keçirilməsində də Fondun dəstəyi vurğulanıb.

Məqalədə Heydər Əliyev Fondunun mədəniyyətlər arasında əməkdaşlıq və dialoq platformasının qurulmasında fəal iştirakı sayəsində dünya mədəniyyətinə, eləcə də qlobal bəşəri dəyərlər, sülh və tolerantlıqda öz izini qoyduğu əks olunub. Diqqətə çatdırılıb ki, Luvr muzeyində İslam incəsənəti bölməsi yaradılıb, Versal sarayının parkında, Luvr Muzey Kompleksində, Berlin şəhər sarayında və digər Avropa şəhərlərində qədim tarixi binalar bərpa edilib. Eyni zamanda, Fondun Vatikanda qədim əlyazmaların bərpasını, eləcə də Romada Kapitolini Muzeyinin "Filosoflar zalı"nın təmirini həyata keçirdiyi qeyd edilib.




# Nüfuzlu "Əl-Fəcr" qəzetində Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinə həsr olunmuş məqalə dərc edilib

Tolerantlıq və sülh dəyərlərinin Heydər Əliyev Fondunun həm daxili, həm də xarici fəaliyyətində başlıca hədəflərdən olduğunu yazan Ş.Əl-Bəsil Azərbaycanda dini tolerantlığın mövcud olduğunu, müxtəlif din mənsublarının sülh içində birgə yaşadıqlarını yazaraq, Mehriban Əliyevanın qlobal səviyyədə dinlərarası dialoqu təşviq edən tədbirlər təşkil etdiyini oxucuların nəzərinə çatdırıb. Müəllif "Azərbaycan – tolerantlıq diyarı" şüarı altında Fondun bir çox məscid və kilsənin inşasına və ya təmirinə dəstək göstərdiyini məqalədə əks etdirib.

Bundan əlavə, məqalədə Heydər Əliyev Fondunun Rusiya, Pakistan və digər ölkələrdə müxtəlif xeyriyyə aksiyaları təşkil etdiyi göstərilib. Pakistanda peyvənd aksiyalarının, açıq ürək əməliyyatlarının keçirildiyi, göz xəstəxanasına və talassemiya mərkəzinə ianələrin təqdim edildiyi, qan donorluğu aksiyalarının təşkil olunduğu misal çəkilib. Həmçinin Fondun Ruminiya, Haiti, Pakistan və dünyanın digər yerlərində baş vermiş təbii fəlakətlərdən əziyyət çəkən insanlara yardım əlini uzatdığı diqqətə çatdırılıb.

Bütün bu nəcib əməllərin Mehriban Əliyevaya 2004-cü və 2006-cı illərdə müvafiq olaraq UNESCO və ISESCO kimi nüfuzlu beynəlxalq təşkilatların xoşməramlı səfiri adını qazandırdığını önə çəkən qəzetin baş redaktoru Azərbaycanın birinci xanımının idmana olan qayğısından söhbət açıb. Belə ki, o, Mehriban Əliyevanın Azərbaycan Gimnastika Federasiyasına rəhbərliyi dövründə bu idman növündə canlanma və inkişafın müşahidə edilməkdə olduğunu oxucuların nəzərinə çatdıraraq, Bakının müxtəlif mötəbər yarışlara ev sahibliyi etdiyini yazıb.

Bununla yanaşı, 2015-ci ildə Azərbaycanda birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsinin məhz birinci xanımın sədrlik etdiyi Təşkilat Komitəsinin adı ilə bağlı olduğunu əsas tutan Ş.Əl-Bəsil həmin Oyunların yüksək səviyyədə təşkil olunmasının Mehriban Əliyevaya 2017-ci ildə ölkəmizdə keçirilməsi nəzərdə tutulan IV İslam Həmrəyliyi Oyunları üzrə Təşkilat Komitəsinin sədri missiyasının həvalə edilməsinə səbəb olduğunu xüsusilə qeyd edib. Eyni zamanda, Azərbaycanın birinci xanımının "Eurovision" mahnı müsabiqəsi üzrə Təşkilat Komitəsinin rəhbəri olaraq, bu mötəbər musiqi yarışmasının uğurla keçirilməsini təmin etdiyi vurğulanıb.

Məqalənin sonunda qəzetin baş redaktoru çoxşaxəli və yorulmaz fəaliyyətinə verilən yüksək mükafatlardan söhbət açaraq, Mehriban Əliyevanın Fransanın "Şərəf Legionu" ordeninə, Pakistanın ən ali dövlət mükafatı olan "Hilal e Pakistan" ordeninə, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeninə, Serbiya Dövlət Ordeninə, eləcə də Dünya Səhiyyə Təşkilatı İcraiyyə Komitəsinin mükafatına, UNESCO-nun "Qızıl Motsart" medalına, "Qızıl ürək" beynəlxalq mükafata layiq görüldüyünü oxucuların nəzərinə çatdırıb.

**Asya HACIZADƏ**

# Bakıda Üzeyir Hacıbəyli VIII Beynəlxalq Musiqi Festivalı keçiriləcək



**Sentyabrın 18-də Bakıda Üzeyir Hacıbəyli VIII Beynəlxalq Musiqi Festivalı keçiriləcək. Mədəniyyət və Turizm Nazirliyindən AzərTAc-a bildirilib ki, festivalın açılış mərasimi hər il olduğu kimi bu dəfə də dahi bəstəkarın doğum günündə, yəni sentyabrın 18-də olacaq. On gün davam edəcək festivalda Azərbaycanla yanaşı, xarici ölkələrdən gələn, tanınmış musiqiçilər iştirak edəcəklər.**

Beynəlxalq festival Heydər Əliyev Fondu və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçiriləcək.

On gün ərzində M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında, kamera və orqan musiqisi zalında, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında, Azərbaycan Bəstəkarlar İttifaqında, Bakı Musiqi Akademiyasında və digər konsert salonlarında dahi Üzeyir Hacıbəylinin, Azərbaycan klassik musiqisinin digər nümayəndələrinin, dünya şöhrətli bəstəkarların əsərləri həm yerli, həm də xarici ölkələrinin musiqiçilərinin ifasında təqdim olunacaq.

Qeyd edək ki, Ümummilli lider Heydər Əliyevin "Üzeyir Musiqi Gününün keçirilməsi haqqında" 1995-ci il 18 sentyabr tarixli Fərmanına uyğun olaraq hər il ölkəmizdə ənənəvi Milli Musiqi Günü keçirilir. 2009-cu ildən etibarən isə hər il sentyabrın 18-dən başlanan və dahi bəstəkar, Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyliyə həsr olunan beynəlxalq musiqi festivalları böyük əks-səda doğurub.




## Milli Kitabxanada "Seyfəddin Dağlı-95" adlı kitab sərgisi açılıb

**Avqustun 24-də M.F.Axundzadə adına Milli Kitabxanada Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri, yazıçı, şair, jurnalist, dramaturq Seyfəddin Dağlının anadan olmasının 95 illiyi münasibətilə "Seyfəddin Dağlı-95" adlı kitab sərgisi açılıb.**

Kitabxanadan AzərTAc-a bildirilib ki, sərgidə yazıçının əsərləri, redaktoru olduğu kitablar və qəzet, jurnal materialları sərgilənib.

Qeyd edək ki, onun "Dəniz kəşfiyyatçısı" adlı ilk kitabı 1948-ci ildə nəşr edilib. "Adı sənin, dadı mənim", "Aydınlığa doğru", "Mənziliniz mübarək", "Təzə gəlin", "Kölgələr pıçıldaşır" pyesləri, "Bahar oğlu", "Məşəl", "Kəcil qapısı", "Sabiqlər" və sair kitabları geniş oxucu kütləsinin rəğbətini qazanıb.

S.Dağlı 1983-cü il yanvarın 18-də dünyasını dəyişib.

## "Milli-mədəni dəyərlərin internet mediada təbliği" layihəsinə start verilib




**Azərbaycan-Slavyan Gəncləri Assosiasiyası (ASGA) İctimai Birliyi Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi ilə "Milli-mədəni dəyərlərin internet mediada təbliği"- www.Cult-News.az layihəsinə start verib.**

Bu barədə AzərTAc-a ASGA-nın təsisçisi və sədri Səbuhi Abbasov məlumat verib. Layihənin aktual mövzuya həsr olunduğunu deyən S.Abbasov informasiya məkanının sürətlə internetləşdiyi dövrdə milli dəyərlərin qorunmasının vacibliyini vurğulayıb: "İKT eyni zamanda ən uğurlu təbliğat vasitəsi hesab olunur. Belə ki, bir çox inkişaf etmiş ölkələr öz milli irslərini, tarixi abidələrini internet resurslar üzərindən dünyada təbliğ edir və beləliklə də həm tarixlərini dünya tarixi irsinə daxil edir, həm də öz turizm imkanlarını daha da artırmış olurlar. Bu mənada 3 Avropa ölkəsində nümayəndəliyi olan Azərbaycan-Slavyan Gəncləri Assosiasiyası beynəlxalq təcrübəsini əsas tutaraq, bu sahədə boşluğu və ciddi tələbatı nəzərə alaraq Mədəniyyət və Turizm Nazirliyinə "Milli-mədəni dəyərlərin internet mediada təbliği" layihəsini təklif edib".

Qeyd edək ki, ilkin mərhələdə iki ay davam edəcək layihə çərçivəsində yaradılacaq internet resurs mərkəzinin uzunmüddətli fəaliyyəti planlaşdırılıb. Eyni zamanda işğal altında olan torpağlarımızda erməni qəsbkarları tərəfindən məhv edilmiş tarixi abidələrimizin sistemli və fərqli şəkildə www.CultNews.az resurs mərkəzində yerləşdirilməsi və davamlı təbliği, dünya mədəni irsinə erməni vandalizminin vurduğu ziyanla bağlı müxtəlif innovativ sorğular keçirilərək nəticələrinin beynəlxalq təşkilatlara göndərilməsi, sosial şəbəkələrin mümkün imkanlarından istifadə edərək təbliğat və təşviqat işlərinin aparılması nəzərdə tutulub.

## Marneulidə "One Caucasus -2016" beynəlxalq festivalı keçiriləcək




**Avqustun 25-dən 28-dək Gürcüstanın Marneuli rayonunun Tserakvi kəndində "One Caucasus-2016" ("Vahid Qafqaz") festivalı keçiriləcək. AzərTAc xəbər verir ki, builki festivalda Azərbaycan, ABŞ, Almaniya, Gürcüstan, Misir, Hindistan, Fransa, Polşa, Rusiya, Ukrayna da daxil olmaqla 15-dən çox ölkədən qonaqlar iştirak edəcək.**

Artıq 3 ildir ki, festival yerli bələdiyyənin dəstəyi ilə Marneuli rayonunda baş tutur. Festivalın əsas məqsədi müxtəlif ölkələrin gəncləri üçün görüş yeri və yaradıcı mühit yaratmaqdır. "One Caucasus" dünyanın dörd bir yanından gəlmiş musiqiçilər, rəssamlar, animatorlar, memarlar və könüllüləri bir araya gətirir. Bundan əlavə, festival rayonun yerli əhalisi ilə aktiv işləyir və Marneulidə, eləcə də digər bölgələrdə vətəndaş büdcəsinin inkişafını dəstəkləyir.

Festivala giriş sərbəstdir, ödənişsiz nəqliyyat və şəhərcik ərazisində pulsuz yaşama imkanı festivalı hamı üçün əlçatan edir.




## "Bakı Oskarı-2" film festivalı keçiriləcək

**Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə "Bakı Oskarı-2" qısametrajlı film festivalı keçiriləcək.**

AzərTAc festivalın "facebook" səhifəsinə istinadla bildirir ki, peşəkar və həvəskar gənc rejissorların iştirakı ilə keçiriləcək film festivalına həvəsi olan hər bir şəxs öz filmi ilə qatıla bilər.

Layihənin əsas məqsədi gənc rejissorların işini dəyərləndirmək, gələcək peşə fəaliyyətlərində onlara uğurlu bir başlanğıc üçün şərait yaratmaqdan ibarətdir.

Üç gün davam edəcək festivalda ən yaxşı 10 qısametrajlı film münsiflər tərəfindən seçiləcək. Dini, siyasi və qeyri-etik mövzular istisna olmaqla gənc rejissorlar bütün mövzulara müraciət edə bilər. Təqdim olunan videomateriallın xronometrajı maksimum 15 dəqiqə olmalıdır. Bundan əlavə, "Ən yaxşı aktrisa", "Ən yaxşı aktyor", "Ən yaxşı ssenarist", "Ən yaxşı operator" seçilərək "Bakı Oskarı" nominasiyaları üzrə mükafatlandırılacaq. Qeydiyyat avqustun 31-dək davam edəcək. Mükafatlandırma mərasimi sentyabrda həyata keçiriləcək.

Qeyd edək ki, iştirak etmək istəyənlər bakioskari@gmail.com elektron ünvana müraciət etməlidirlər.

# Azərbaycanlı musiqiçinin Parisdə konserti olacaq

**Sentyabrın 8-də gənc və istedadlı bəstəkar Etibar Əsədlinin Parisin "Reservoir" klubunda konserti olacaq.**



AzərTAc xəbər verir ki, bu barədə məlumat www.loisiramag.fr saytında yer alıb. Fransada yaşayan azərbaycanlı bəstəkar və pianoçu Etibar Əsədli 2013-cü ilə qədər Bakıda keçirilmiş caz festivallarında çıxışı və bəstələri ilə musiqisevərlərin rəğbətini qazanıb. O, həmçinin Fransa, İngiltərə, Türkiyə, İsveç, Gürcüstan, Rusiya və digər ölkələrdə konsert proqramları ilə çıxış edib, 48-ci Montrö Caz Festivalının iştirakçısı olub.

# Dramaturqumuzun əsəri Türkiyə teatrında

**İstanbulun Oda (kamera) teatrının səhnəsində yazıçı-dramaturq Firuz Mustafanın "Müqəvva" pyesi əsasında səhnələşdirilən tamaşanın premyerası olub.**




AzərTAc xəbər verir ki, rejissor Elçin İmanovun quruluşunda təqdim olunan səhnə əsəri Azərbaycan dilində nümayiş olunub. Quruluşçu rəssamı Taryel Əlizadə olan tamaşada musiqi tərtibatı bəstəkar Elçin Eminə məxsusdur. Səhnə əsərində baş rolu İstanbulda yaşayan həmyerlimiz Kəmalə Kəmal ifa edib. Tamaşanın premyerasına Türkiyənin sənət ictimaiyyəti ilə yanaşı, ölkədə yaşayan Azərbaycan vətəndaşları da yaxından maraq göstəriblər.

**Artıq neçə aydan bəridir ki, ARNK yanında Tərcümə Mərkəzində "İşlək orfoqrafiya lüğəti" üzərində iş gedir. Məqsəd, hazırda istifadədə olan "Azərbaycan dilinin orfoqrafiya luğəti»ndə yer almış minlərlə yazılışı səhv, qəliz ərəb, fars sözlərinin, mənası və mənbəyi bilinməyən söz və söz birləşmələrinin, müxtəlif şəkilçilər və hallandırmalarla artırılmış, bəzən iki-üç şəkildə verilmiş ifadələrin, eləcə də sahə lüğətlərinə aid terminlərin, dərman, kimyəvi element adlarının təmizlənməsi, əvəzində milli ədəbi nümunələrdən aranıb tapılmış sözlər daxil edilməklə, işlək, aydın dil vəsaitinin ərsəyə gətirilməsidir. Adıçəkilən kitabdan, orfoqrafiya lüğəti qaydalarına uyuşmayan sözlərin təsnifatını nəzərinizə çatdırır, oxucuların, dil və lüğət mütəxəssislərinin fikir və mülahizələrini, irad və təkliflərini gözləyirik. Orfoqrafiya lüğətindən çıxarılan sözlərin təsnifatı 6 fevral 2016-cı il tarixdən (62 saylı buaxrılış) etibarən mütəmadi olaraq "Aydın yol" qəzetində dərc edilir.**

*(Əvvəli ötən saylarımızda)*

# "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndən çıxarılan sözlərin təsnifatı

Orfoqrafiya lüğətinin tərifi: "Orfoqrafiya lüğəti - sözlərin düzgün yazılış qaydasını bildirən dil vəsaitidir".

| Mənası anlaşılmayan sözlər | Mənası və yazılışı qüsurlu sözlər | Dialekt və ara sözləri | İşlənməyən ərəb, fars və digər əcnəbi sözlər | Terminlər | Suni sözlər və söz birləşmələrindən düzəldilən qurama sözlər | Lüzumsuz sözlər və söz hallandırmaları |
|---|---|---|---|---|---|---|
| əzgilşəkillilik | faizendirmə | əzgilburun | fikir-xəyalat | fazanari | dördboşluqlu | döyənəkləmə |
| əzgilvarılıq | faizqaldırma | fişləmə | fildekos | fazitron | dördbölüm | döyənəkləmək |
| fəxriyyəyazan | farağatlama | fişləmək | fildepers | fisk (tar.) | dördbölümlü | döyənəklətmə |
| fəsadçı | farağatlamaq | fitilqoyan | filder, quş əti | fiskal | dördbuynuz | döyənəklətmək |
| fəsadçılıq | farağatlaşma | fitilqoyma | filer, xəfiyyə | fonoavtoqraf | dördbuynuzlu | döymənaxışsız |
| fəsadçılıqetmə | farağatlaşmaq | gahbir | filister, meşşan | fosfataza | **dördcərgəbasdırma** | döyükdürmə |
| filizlilik | farağatlatma | gahdan | fləq, mehtərə | fotobomba | dördcərgəli | döyükdürmək |
| **filqulağındayatma** | farağatlatmaq | gahdanbir | namdar | fotosinkoqrafiya | dördcığırlı | döyüşlü |
| **filmyapışdıran** | farsşünas | gah-gah | nameyi-əmal | frenoqraf | dördcildli | döyüşsüz |
| **filmyapışdırma** | farsşünaslıq | geyişikli | naməqbul | frenologiya | dörddamarlı | ecazkar-ecazkar |
| **filmyoxlama** | faşin | geyişiksiz | namərbut | freza | dörddəfəlik | edilmək |
| **filmyoxlayan** | feodal-təhkimçilik | gəbəli | namərdanə | geştaltpsixologiya | dörddiskli | effektsizlik |
| **filmyoxlayıcı** | feyzli | gəbəsiz | namöhtərəm | neytrofil | dörddivarlı | ehmallı-ehmallı |
| fincanabənzərlik | feyzsiz | gənəşikli | namövzun | neytrofilyoz | dörddövrəli | ehmallılıq |
| fincanaoxşarlıq | fəsadtörədən | gənəşiklilik | namurad | neytron-karotaj | dörddüymə | ehmalsız |
| fincanşəkillilik | fəsadtörətmə | gödənqulu | namuskar | neytronoqrafiya | dörddüyməli | ehmalsızlıq |
| **fırçatutan** | fikirlik | gödənqululuq | namuskaranə | neyzilber | dördelektrodlu | ehtimallı |
| **fırçatutucu** | fiqurluq | **oğul-beçə** | namübarək | niasin | dördelementli | ehtiramlılıq |
| **fır-fırolma** | filmgöstərən | oyaşma | namüəyyən | nixrom | dörderkəkcikli | ehtiramsızcasına |
| **firmalaşdırılmış** | filmgöstərmə | oyaşmaq | namülayim | nikelin | dördfəndli | ehtişamlılıq |
| **fırt-fırt** | filmqablaşdıran | oyunbazxana | namümkün | nikol | dördfənli | ehtiyatsızcasına |
| fısafıssalma | filmqablaşdırma | **ödəşkənlik** | namürüvvət | nikotin-sulfat | dördgedişli | ehtizazlı |
| fısfısetmə | filmsurət | **öfkəsidönən** | namütənahi | niqrol | dördgirişli | exinokaktus |
| fışafışsalan | filoloq-sanskritoloq | **öfkəsidönmə** | namüvafiq | niqrozin (-lər) | dördgöyərtəli | eklektiklik |
| fışafışsalma | filosofanə | **öfkəsiyanan** | namvar | nimfalid | dördgözlü | ekranlaşdırıcı |
| **fişəngbaz** | filosofanəlik | **öfkəsiyanma** | nan | nimonik | dördguşə | ekranlayıcı |
| fişəngbazlıq | filosofanəliklə | **öldü-qaldıbilməz** | napak | niobium | dördguşəli | ekspansionistlik |
| **fondsaxlama** | filosofolma | **öldü-qaldıyabaxmaz** | narəva | nistaqm | dördhecalı | ekstensivlik |
| **fondsaxlayan** | fışqırıqçalma | ölmədiril | nasaq | nitragin | dördhissəli | ekzemasız |
| fonverimi | fitobiologiya | pampaça | nasəza | nitralloy | dördkameralı | ekzobiologiya |
| fonvermə | flügercik | pazı-pazı | nasəzalıq | nitrat-ion | dördkünclük | **elbaşılıq** |
| forsajsız | **fondtutumu** | pəpə | naşad | nitrifikasiya | **dördkünclülük** | **elbəyilik** |
| **forsatan** | **fondverimi** | **pəpəş** | naşayistə | nitril | dördqatlı | elegiyasayaq |
| forsedən | **forelçilik** | pərtənəgöz | naşiri-əfkar | nitril-kauçuk | dördqaytanlı | elegiyatəhər |
| forsetmə | fotoartırıcı | pərtənəgözlü | naşur, parça | nitrit-ion | dördqəfəsli | elegiyavarı |
| forsorlaşma | fotoavtomüfəttiş | pırçımlanma | navaxt | nitroammofos | dördqıçlı | elegiyayabənzər |
| forssajlı | fotoçevirici | pırçımlanmaq | nazikanə | nitrobakteriya | dördqiymətli | elegiyayaoxşar |
| **fotoqrafxana** | fotoçəkmə | pırçım-pırçım | nazikmiyan | nitrobenzol | **dördqiymətlilik** | elektor |
| **fototəsirlənmə** | **fotolentyandırma** | pırhapır | naziktər | nitroetan | dördqotazlı | **elektriklənə-elektriklənə** |
| **fövqəlmoralist** | **fotolentyanma** | piştə | nazim | nitroetilen | dördqramlıq | elektrikləşə-elektrikləşə |
| **gendəduran** | fotomantajçılıqetmə | **ponza** | nazimçarx | nitrofenol | **dördqulaq** | elektroaerozol |
| **gendədurma** | fotoofort | **ponzabığ** | nazpərvər | nitrofos | **dördqulaqlı** | elektroakustik |
| gendəqalan | fotosənədlilik | **ponzabığlı** | neçin | nitrofosfat | dördqulplu | elektroakustika |
| gendəqalma | gecəkoru | portlama | nəcasət | nitroxlorbenzol | dördqülləli | elektroanalgeziya |
| gendənbaxan | genderşünas | portlamaq | nəccar | nitroxlorid | dördqütblü | elektroanaliz |
| gendənbaxma | genderşünaslıq | portlatma | nəccarlıq | nitrokauçuk | dördlampalı | elektroaparat |
| **gendənvuran** | general-prokuror | portlatmaq | nəcibanə | nitroqlikol | dördlələkli | elektroaparatura |
| gendənvurma | genəbənzər | pozuqlama | nədamət | nitroqliserin | dördləpəli | elektroavtomatika |
| **gendöş** | genəbənzərlik | pozuqlamaq | nəf | nitrolak | dördlitrli | elektrobucurqad |
| **gendöşlü** | geoloji-planaalma | pozuqlanma | nəfbərdar | nitrometan | dördlitrlik | elektrodinamometr |
| gendöşlük | girdəhüceyrə | pozuqlanmaq | nəfir | nitrometr | dördlüləli | elektrodlararası |
| **genişgedişli** | girəvələtmə | pozuqlatma | nəfirçi | nitron | dördmaqnitli | elektroensefaloqrafik |
| gentəhərlik | girəvələtmək | pozuqlatmaq | nəfsani | nitronatrit | dördmanatlı | elektroeroziya |
| geriyədönən | girincdüşən | professorsayağı | nəfskar | nitroparafin | dördməftilli | elektrofiltr |
| geriyədönənlik | girincdüşmə | pullatma | nəfspərvər | nitropenton | dördmilli | elektrofizioloji |
| **gərdişedən** | gödəkayaqlılıq | pullatmaq | nəğməxan | nitropolimer | dördmisralı | elektrofotoqrafiya |
| gərdişetmə | görüşmə-sevişmək | pursuqma | nəğməsaz | nitropropan | dördnəfərli | elektrofotometrik |
| **giciyitutma** | göz-qaşedən | pursuqmaq | nəhr | nitrosellüloz | dördnövçü | elektrofotometriya |
| **girdəndüşən** | göz-qaşetmə | saqqızlama | nəhv | nitrosementit | dördnövçülük | elektrofotosurət |
| girdəndüşmə | gözvurma | saqqızlamaq | nəhvi | nitrosulfat | dördoxlu | elektrofototəsvir |
| girdəndüşmüş | **gülsatanlıq** | salışma | nəqahət | nitrotoluol | dördoxluq | elektroxod |
| **girdirməli** | **günbatanda** | salışmaq | nəqdiyyə | nitrozil-bromid | dördoxluluq | |
| **girdirməsiz** | **günçıxanda** | sallaqsüksün | nəqqaşkar | nitrozil-xlorid | dördotaqlı | |

*(Davamı gələn sayımızda)*

Aydın Yol 5
N 29(88) 26.08.2016



**I YAZI**

**...1885-ci ilin payız axşamı San-Fransiskoda kef axtarışına çıxmısan? Əlbəttə, əgər cibin doludursa, ver özünü saysız-hesabsız "Salon"lardan birinə. Romdan, viskidən içib keflən, sonra da siqardan sümürə-sümürə qısa ətəkli gözəlçələrin mənasız rəqsinə tamaşa elə. Az keçmiş sərxoş kovboyların atışması səni mürgüdən oyadır, salon sahibi də hamını küçəyə atıb qapıları bağlayır. Vəssalam. Pulun batdı, kefinə də soğan doğrandı.**

# Olum və ölüm rəqsi

Amma bəs cibində siçan oynayan kasıb harada dincəlsin? Salon nədi, adicə pivə içməyə pulu olmayanlar San-Fransiskonun payız axşamı küçələrdə ac-yalavac sülənməyə məhkumdur. Vaxt öldürməyə isə həmişə bir şey tapılar. Budur, köhnə məhəllənin girəcəyində qələbəlikdir - adamlar yenə dövrə vurub, iynə atsan yerə düşməz. Mandalina və zərb alətlərində ifa olunan şən musiqi sədaları dalğa-dalğa ətrafa yayılır. Alabəzək paltar geymiş 6-7 yaşlı bir qızcığaz ortalığa düşüb təkbaşına rəqs edir. Hərəkətləri çox cəld və elastikdir. Əslində rəqs etmir, havada süzür, nəhayət, ifa başa çatır, gurultulu alqış sədaları məhəlləni bürüyür.

- Afərin, Dora!
- Dora, əla oynadın!
- Xəsislik eləmə, qız, birini də oyna!

Rəqqasə qızcığaz sanki böyük səhnədə çıxış edirmiş kimi, hamıya təzim edir, yox, o, pula görə oynamır, onsuz da pul verən yoxdur, sadəcə, bu istək daxilindən gəlir, heç özü də bilmir hardan... Amma qonşulardan hər gün eşitdiyi bir söz var: "Bu qızcığaz Allah vergisidir!"



Tanrı niyə onu seçib? Məhəllədə hamının nəvazişlə "Dora" çağırdığı Aysedora Dunkan ağlı kəsəndən rəqs edib, saatlarla, günlərlə... O, sonralar xatirələrində yazırdı ki, "sanki dünyaya rəqqasə olmaqdan ötrü gəlmişdim".

Aysedora 1878-ci ildə Amerikada doğulmuşdu. Atası müflisləşdiyi üçün arvadını və 4 uşağını evdə ac-yalavac buraxıb onları tərk etmişdi.

Aysedora nağıllardakı kimi, göz qırpımında böyüdü və gözəgəlimli bir qız oldu. 13 yaşında məktəbdən uzaqlaşan Dora yalnız musiqi və rəqslə məşğul olmaq qərarına gəldi. 5 ildən sonra isə əksər yaşıdları kimi böyük pullar qazanmaq məqsədi ilə Çikaqoya yollandı.

İlk məhəbbəti - sarışın polyak İvan Miroskiy peşəkar rəqsdə ilk kövrək addımlar atan Aysedoraya dəstək oldu. Lakin İvan başqa qadınla evli idi və Dunkandan 25 yaş böyük olduğundan rəsmi izdivacdan söhbət gedə bilməzdi.

Aysedora tezliklə Çikaqodakı kübar salonların ulduzuna çevrildi. Müasirlərinin yazdığına görə, ecazkar rəqslər musiqi ilə bir-birini əla tamamlayırdı. Bəli, Aysedora adi rəqs hərəkətlərinə yeni nəfəs və məna vermişdi.

Rəqqasə xeyli varlandıqdan sonra Avropanı fəth etmək qərarına gəldi. O, Yunanıstanda antik sənət növləri ilə yaxından tanış olur və yaradıcılığını qədim yunan rəqslərindən əxz etdiyi hərəkətlərlə zənginləşdirdi. Lakin buna qədər Aysedoranın adı yeni məhəbbət macəralarında hallanırdı. Belə ki, Avstriya taxt-tacının vəlihədi hersoq Ferdinand okeanın o tayından gəlmiş rəqqasənin gözəlliyinə və sənətinə dəlicəsinə vurulmuşdu.

Elə buradaca, Dunay sahillərində Dunkan növbəti məhəbbəti ilə rastlaşdı. Rəqqasənin bu dəfəki seçimi gənc macar aktyoru Oskar Bereji idi. Lakin bu izdivac da uzun sürmədi.

Şəxsi həyatdakı uğursuzluqları unutmaq məqsədi ilə Dunkan Almaniyaya gəldi və burada dahi bəstəkar Vaqnerin əsərləri ilə tanış oldu. Rəqqasə öz plastik improvizələri ilə bu melodiyaları rəqs dilinə çevirdi. Amma məhəbbət adlı kabus onu Almaniyada da rahat buraxmırdı. Yerli sənətşünas Henri Tode ilə platonik sevgi romanının da ömrü qısa oldu.

Aysedora Berlində ingilis rejissor Qordon Kreqlə tanış oldu. Dunkanın fantastik rəqsləri rejissoru ilk andan ovsunlamışdı. Cütlük çox xoşbəxt yaşasa da, az sonra hər şey dəyişdi. Kreq yeni sevgilisinə hər addımbaşı eyham vururdu ki, onu məşhur rəqqasə kimi yox, sadəcə evdar qadın, uşaqlarının anası kimi görmək istəyir. Bu, Aysedora üçün ölümdən betər idi. Yeni doğulmuş qız övladı - Didre də ailəni dağılmaqdan xilas edə bilmədi.

Ayserora Dunkanın şöhrəti gündən-günə artırdı. Onu "ilahi rəqqasə" adlandırır, bənzərsiz bir sənətçi olduğunu yazırdılar. Avropanın ən iri şəhərlərində, tanınmış mədəniyyət mərkəzlərində Dunkanın möhtəşəm rəqs üslubu artıq dövrün dəbinə çevrilmişdi.

Ömründə ilk dəfə analıq hisslərini yaşayan Aysedora öz sonsuz məhəbbətini digər uşaqlara da aşılamaq qərarına gəldi. O, Parisdə rəqs məktəbi açdı. Təhsil ocağının xərclərini ödəmək çox çətin idi. Bu xeyirxah işə sərmayəçi cəlb etmək məqsədi ilə Dunkan Avropanın ən varlı adamlarından biri ilə tanış oldu. Bu şəxs məşhur tikiş maşınlarının ixtiraçısı və istehsalçısının oğlu Yucin Zinger idi. İş adamı böyük həvəslə məktəbin xərclərini ödəməyə razılıq verdi. Onların tanışlığı əvvəlcə dostluğa, sonra isə ehtiraslı məhəbbətə çevrildi.

Amerikanın kasıb əyalətindən çıxmış rəqqasəni indi yalnız kübar məclislərdə, dəbdəbəli qəbullarda görmək olardı. Tezliklə Aysedoranın ikinci övladı Patrik doğuldu. Ancaq kübar məclislərin birində Yucin Aysedoranı dəlicəsinə qısqandı, onlar qızğın mübahisə etdilər və Zinger küsərək Misirə yollandı. Uşaqlar Parisdə qaldı və Dunkan da hirsini soyutmaq üçün Rusiyaya qastrol səfərinə getdi. Rusiyada Aysedoranı qarabasmalar rahat buraxmırdı. Rəqqasə yaxınlarına bildirmişdi ki, onun gözlərinə qar təpəciklərinin üstündə iki tabut görünür, gecələr isə qulaqlarında Şopenin "Matəm marşı" səslənir.

Qarabasmalardan dəhşətə gəlmiş Aysedora tezliklə Parisə döndü və uşaqlarını da götürüb Fransa paytaxtı yaxınlığındakı Versal şəhərinə istirahətə yollandı. Ayrılığa dözməyən Zinger də Misirdən qayıtdı və cütlük barışdı. Sanki hər şey artıq yoluna düşmüşdü...

**Fərhad SABİROĞLU**

# Torpaq adamı



Fərhad ABDULLAYEV

**Deyirlər, Vətən sevgisi qanımıza ana südü ilə keçir.**
**Bilmirəm, bu, nə dərəcədə doğrudur, amma Vətən sevgisini illər boyu qoruyub saxlamaq, ondan ruh alıb yaşamaq özü də böyük səy tələb edir.**

...Türkiyənin Mərməris bölgəsi öz gözəl təbiəti ilə kimsəni bigana qoya bilməz. Ulu Tanrı bu yerlərdən heç nəyini əsirgəməyib. Dağlar bu nağıl şəhəri dənizin dəli küləklərindən qısqanclıqla qoruyur, şam meşələrindən ucalan nəfis qoxulu hava isə insana sağlamlıq bəxş edir. Bakı buxtasını xatırladan Mərməris sahillərinin suyu göz yaşı kimi şəffafdır. Dünya əhəmiyyətli bu turist məkanı ilin bütün fəsillərində qələbəlik olur.

Mən Mərmərisə gələndə Türkiyəni ayağa qaldıran həmin o çevriliş cəhdi gecəsindən iki həftə keçmişdi. Ağrı-acılar, yaralar təzə idi, hər tərəfdə türk bayraqları dalğalanırdı. Bəli, qardaş ölkə xainlərin fitnəsinə uymadı, şəhidlər verdi, amma yenmədi. Hoteldə çalışan gənclərdən biri yuxarı mərtəbədəki divarda mərmi yerlərini göstərib dedi:

- Küçə tankla, əsgərlə dolu idi, aramsız atəş açırdılar. Hotellərin şüşələrini qırıq-qırıq eləmişdilər. Sonradan bildik ki, demə bu, Türkiyə Prezidentini qətlə yetirmək cəhdinin nişanələri imiş...

Prezident R.T.Ərdoğan xain hücumdan yarım saat əvvəl istirahət etdiyi Mərmərisi tərk etmişdi. Ertəsi gün onun yaşadığı hotelə baş çəkdim. Hücumun izi-tozu da qalmamışdı, hər şey tam təmir olunmuşdu və lüks hotel adi günlərindən birini yaşayırdı.

Geri dönəndə dünya şöhrətli bir hotelin qarşısından keçməli oldum. Oxumuşdum ki, ingilislərə məxsus bu super bahalı məkan fantastik xidmətlər təklif edir, bura hər şey – çörəkdən tutmuş diş fırçasına qədər bütün ərzaq və ləvazimatlar İngiltərədən gətirilir, özü də bu torpaq təxminən bir əsr əvvəl ingilis iş adamına satılıb. Hər tərəf özəl mühafizəçilərlə, kameralarla və təhlükəsizlik qurğuları ilə dolu idi. Saytların birində yazılmışdı ki, bu hoteli altı milyard yarım dollara almaq istəyən var, amma sahibi bütün təkliflərdən boyun qaçırır.

Lüks hotelin ərazisinə bitişik bir bağ diqqətimi çəkdi. Yaxınlaşıb sarmaşıqların arasından həyətə göz gəzdirdim. Ərazi çox da böyük deyildi. Üzüm dolu tənəklər talvara qaldırılmışdı, xeyli portağal, limon, armud və gavalı ağacları vardı. Toyuq-cücə torpaqda eşələnir, xoruzlar da ora-bura vurnuxub bivaxt banlaşırdı. Düzü məəttəl qaldım. Lüks bir məkanın yanında belə bir kənd mənzərəsini görəcəyimi ağlıma belə gətirməzdim.

Ahıl bir türk bostandakı pomidor kollarının arasında alaq edirdi. Diqqətlə baxdığımı görüb yaxınlaşdı. Salamlaşdıq. Azərbaycanlı olduğumu biləndə çox sevindi və ilk sözü də bu oldu:

- Dar ayaqda Azərbaycan, hörmətli İlham Əliyev bizə dəstək oldu. Bunu heç vaxt unutmarıq.

Yaşı 70-i ötmüş Toğrul abi məni kiçik daxmasına, çay içməyə dəvət etdi. Marağımı gizlədə bilmədim.

- Necə olub ki, hotelin sahibi bu bağla maraqlanmayıb, bu bir ovuc torpağı almağa cəhd göstərməyib?

- Dəfələrlə adam göndərdi, pul, başqa yerdə böyük torpaq sahəsi təklif elədi, razılaşmadım. Günlərin bir günü özü durub gəldi, tərcüməçisi ilə birlikdə. Bağı xeyli gəzib dolaşdı, sonra da sən əyləşdiyin yerdə oturdu, onu da çaya qonaq elədim. Ləzzətlə içib dedi ki, ömründə belə ləzzətli çay içməyib. Tərcüməçisi bildirdi ki, bu adam lorddur, İngilis kraliçasının yaxın dostudur, sən gəl daşı ətəyindən tök, satmağa razı ol. Ona dedim ki, özünü nahaqdan yormasın, altı milyard yarım dollar da versə satmaram. Qurtardı! İndi hər dəfə Mərmərisə gələndə mənə baş çəkir, çayımdan içir.

- Toğrul abi, birdən hörmətli Ərdoğan şəxsən özü gəlib lord üçün xahiş eləsə, onda da satmazsan?

- Yox! O, özü də türk oğlu, türkdür. Soyu, kökü Qara dənizdəndir. Heç vaxt xahiş eləməz. Çünki bilir ki, torpaqdan pay olmaz!



# "Ağlıma gəlməzdi ki, "Dəyirman"a belə hücumlar ola bilər..."

**Ömrü boyu yazsa da, hər bir yazıçının yaradıcılığında seçilən, digərlərindən fərqlənən bir və ya bir neçə şah əsəri olur ki, bu da onun ədəbiyyatda yerini və mövqeyini müəyyənləşdirir. "Aydın yol" bu sayından başlayaraq ara-sıra bu cür əsərlərin yaranma tarixçəsinə, taleyinə müəlliflə birgə işıq tutmaqla oxucularına "Uğurlu əsərlər" adlı yeni rubrika təqdim edir. Bu silsilədən ilk hömsöhbətimiz Xalq yazıçısı Mövlud Süleymanlıdır. Müəlliflə onun vaxtilə böyük rezonansa səbəb olaraq, nəinki ədəbi, hətta siyasi hadisəyə çevrilmiş "Dəyirman" povesti barədə danışacağıq:**

**- Mövlud müəllim, əvvəlcə povestin yazılma səbəbindən başlayaq. Povesti nə qədər vaxta tamamladınız?**

- Səbəb Allahdan... sualı eşidən kimi ilk ağlıma gələn bu oldu. Belə fikirləşməmişdim amma.

İndiki halımda, yəni yaşımın bu çağında ən maraqlısı səbəbin Allahdan olmağıdı: yaxşı ifadədi, tam açılmasa da, yarımçıq deyil, mənası bütövdü. Bunu düşünürəm, vaxt almamaqçün izahından yayınıram. Həm də bu cavab birbaşa indinin cavabı oldu, yetmiş üç yaşımın cavabı... yəqin ki, qırx il qabaq bu suala cavabım ayrı cür ola bilərdi.

Əslində səbəbi çox sadədi. Doğrudan da, səbəb Allahdan...

1960-cı illərin sonlarında yazılarıyla, düşüncəsi, baxışlarıyla mənə çox doğma, yaxın olan Arif Mustafazadə adında bir dostum Radionun "Gənclik" redaksiyasında çalışırdı. Mənə də ara-sıra sifarişlər verirdi, verilişlər yazırdım. Günlərin birində, daha doğrusu, 1968-ci ildə məni rəhbərliyə təqdim edib, köçüb Gürcüstana, öz doğma yurduna, indiki dilnən desək, biznes qurmağa getdi. Mən onun yerində çalışmağa başladım. Aradabir Bakıya gəlirdi, görüşürdük. Bir dəfə soruşdum:

**- Axı, sən heç yazı-pozudan danışmırsan... nə məsələdi, hanı yazıların?**

- Nə yazı, - dedi, - Kürün üstündə bir dəyirmanı kababxana eləyiblər, kimin ağzıdı evində otursun, əlinə keçəni üyüdür, qapısı açıq, daşı da işləyir, dişi də.

Bu xəbər məni sarsıtdı, elə bil getdiyim yerdə yönümü dəyişdilər, çünki bu yön-səmt mənə tanışdı. Mənim gəldiyim yerdə də dəyirman vardı, hələ kababxanaya dönməsə də novunda fırlananlar, donuzluğunda (suyun yaratdığı soyuqluq, alt qat) oynaşlıq eləyənlər, unnuqda, kötük oturacaqlarda süfrə quranlar vardı, bir-birini səsləyir, iyə yığışırdılar. Bütün bu dediklərimin mənası altında isə Vaxt keçib gedir, öz işini görürdü; yamacları dəyişir, suları qurudur, bütün hərəkətləri iştahlara, tamahlara hesabladırdı...

Dərdin də oxşarı var, üzlər-gözlər kimi, daha doğrusu, insanlar kimi dərdlərin də, ağrıların da bir-birinə bənzəməyi var.

Bunu niyə dedim? Neçə vaxtdı, ayağım ağrıyırdı, topuğumu yerə qoya bilmirdim. Həkim dedi: -Topuq sümüyündə dəyişiklik var, ağrıyan topuq sümüyüdü. Mən onnan sonra anladım ki, ayağımın ağrısı mənə hardan tanışdı; dişimin ağrısına oxşatmışam, dişim də belə ağrıyırdı. Yəni, ikisi də sümük ağrısıdı, qapalı yerdən ağrıyır. Budu, demək istədiyim.

Dərd də elədi, Arif Mustafazadənin dediyi dəyirman da mənə belə ağrı, dərd kimi tanış gəldi, ona görə aparıb birini də öz kəndimizdə tikdim...

Səbəb budu, başqa səbəb yoxdu.

Əslində hər şey münasibətlərə bağlıdı, mən fikrimdən keçən "səbəb Allahdan" ifadəsini də münasibətlərlə əlaqəli hesab edirəm...Yadımdadı, "dəyirman" söhbətindən sonra Arif hansısa unudulmuş bir el şairindən içləri göynədən belə bir beyt dedi:

*Gəldi sentyabr ayı açıldı məktəb,*
*Allah evini yıxsın, ey böyük səbəb...*

Bu beytlə də ayrıldıq, Arif dünyasını dəyişdi, ruhu şad olsun, o beytsə yaddaşımda Arif qarışıq həmişə yaşayır, həmişə Arif qarışıq xatırlayıram...

"Dəyirman" povestinin yazılma səbəbi bu idi. Tarixi yadımdadı, 1978-ci il, cəmi üç aya işlədim, yəni bir fəsildə tamamlandı. Yaz fəsliydi, hər şey,- arada mən də olmaqla - tumurcuq içindəydik...

**- Bildiyimizə görə, DTK əsərlə çox ciddi maraqlanıb...**

- "Dəyirman"ın nəşrindən dərhal sonra məni bir neçə kərə DTK-ya apardılar, hər dəfə də təxminən eyni sualları verirdilər:

- O, nə başlardı, qaynadıb bir-birinin üstə qoyubsan, biri gülürdü, deyirsən, biri fikirləşirdi, deyirsən... yəni, nə təhər yıxaq, hı? Başın biri də ağlayırdı, altda qalmışdı, sənsən həəə, altda qalıb ağlayan?! Sənsən?! Gör nə yazırsan, "Günəş elə sevinc içində batırdı ki, elə bil bir də çıxmayacaqdı..." Yaxşı bununla nə demək istəyirsən?! "Qan qana qarışıb kəndin içiylə axırdı..." Hanı, o kənd, içiylə qan axan kəndi göstər görüm. Niyə yalan yzırsan? Kimdir sənin müəllimin?!

Nə isə...o zamanlar belə şeylər oldu, amma mən həmişəki kimi oturub bir-birinin ardınca əsərlərimi yazdım. "Dəyirman"a qədər də "Sonuncu dayanacaq", "Yaşıl obaların toyu", "Duzsuzluq", "Şeytan" povestlərini, bir çox hekayələr yazmışdım. O təzyiqlər məni dayandırmaq gücündə deyildi, mən belə qavramışdım. Respublikamızın ədəbi mühitində də təmiz hava duyulmaqdaydı. Bir səbəbi də, heç şübhəsiz, bu idi.

"Dəyirman" yazılan ərəfələrdə Böyük Vətən müharibəsində həlak olmuş atama görə bizə ev vermişdilər, anam yanımdaydı; bir dəfə nə vaxtsa yazı yazanda anama demişdim, sən yazımın üstünə gələndə işim çox yüngül olur, yaxşı yazıram. "Dəyirman"ı yazanda da ayaqlarının ucunda əlinə nə keçir gətirir, yoldaşımın səslə-sözlə dolu olan baxışlarının altıyla yorulmadan-usanmadan başıma dolanırdı ki, "yüngül" yazım.

- Mənə olan bu hücumlara görə çox üzülürdü... müharibələri, Vedibasar, Dərələyəz, Ağbaba, Axıska sürgünlərini yaşamış, 40- cı illərdə öz kəndimizdə kənd sovet sədri işləmiş, ən əsası sovet KQB-sinin nə demək olduğunu yaxşı bilən beş uşaq anası idi. İztirab keçirirdi, ona görə mən də çox ağrılar yaşamalı oldum. Ailəliklə sevinc, ümid içində gözlədiyimiz kitablarım nəşriyyat planlarından çıxarıldı, özümüzdə də, Moskvada da. Yüzlərlə məktublar yazıldı ki, bəs, Sovet Hökuməti əleyhinə belə bir əsər yazılıb, tədbir görün, yoxsa yıxılacaq, alt-üst olacaq....

**- "Dəyirman"ı müdafiyə edən şəxsiyyətlər haqda danışaq. O dövrlə bağlı mətbuatın yazdığına görə sizi sayılan, seçilən görkəmli şəxslər qoruyub...**

- Heç ağlıma gəlməzdi ki, "Dəyirman"a belə hücumlar ola bilərmiş... Çünki nə yazacağımı öncədən düşünməmişdim. Səmimi olaraq deyim ki, heç bir qəsdim-qərəzim yox idi. Bu şəkildə, yəni bir yazıyla hökumətin, dövlətin harasınısa qaşıyıb qan çıxartmaqdan xoşum gəlmir, belə şeyi heç vaxt bəyənməmişəm. Mənim üçün dünyada hər şey dediyim kimi bir-birinə bağlı olan münasibətlərdən asılıdı. Sevgidən, ailədən, dostluqdan tutmuş siyasətə, dövlətçiliyəcən hər şey münasibətlər üzərində bərqərardı... yaxşı, pis münasibətlər üzərində. Bu cavabları verərkən ağlıma gələn "səbəb Allahdan" ifadəsi də haradasa bu fikrə, bu məntiqə əsaslanır. Yəni, dünyada canlı-cansız nə varsa, hər şeyə sənin bəslədiyin və ya sənə qarşı bəslənilən münasibətlərə görə qiymət verilir.

Dünyanın hər yerində işıqlı, sağlam münasibətləri,- anlaşmanı sahmanda saxlayan, düzgünlüyü, haqqı, ədaləti qoruyan insanlar olub, var, həmişə də olacaq. Məni də, "Dəyirman"ı da onlar qorudu...

Aradan qırx ilə yaxın vaxt keçib, dünyasını dəyişənlərə Allahdan qəni-qəni rəhmət, sağ olanlara uzun ömür diləyirəm. Gəldilər, bayaq dediyim, dünyanı bərqərar eləyən münasibətləri müdafiəyə etdilər, sözün əsl mənasında divan quruldu, məni qorudular...

Bütün mənalarda- münasibətlərdə böyük insan olan Rəsul Rza xəstəliyinə görə "Dəyirman"ın müzakirəsinə gələ bilmədi, amma povest haqqında yazdığı "Dəyirman dərdi" adında çox dəyərli məqaləsini göndərdi.

Müzakirədən sonrakı ərəfələrdə biz Anarla Rəsul Rzaya baş çəkdik. Mərdəkanda xəstə yatırdı. Anar tanış elədi, -Mövluddu,-dedi,- "Dəyirman"ı yazan...

Eşidən kimi yerindən dikəldi, iliyə işləyən göy gözləri üzümə dikilib gülümsədi:

- Ölmədim, - dedi, - dəyirmançını gördüm...

Bu boyda səmimiyyətdən sonra ustad Rəsul Rzaya indi dərin təşəkkürlərdən, razılıqdan başqa nə deyə bilərəm... Amma elə o vaxt istədim xatırladam ki, ustad siz bir dəfə də mənə əl uzatmısız, dar vaxtımda kömək etmisiz. Ailə məsələsi olduğuna görə deməyə üzüm gəlmədi...

Universitetin sonuncu kursunda oxuyanda radionun "Ədəbiyyat" redaksiyası şeirlərimi Rəsul Rzaya göndərmişdi ki, fikrini bildirsin. O vaxtlar Rəsul Rza ədəbi verilişlər aparırdı. Məsələ burasındaydı ki, mən Bakının kəndlərindən olan, bir yerdə oxuduğum tələbə qıza elçi göndərməliydim. Bakıdan min kilometrdən də çox aralı olan ucqar bir dağ kəndində gözləyənlər vardı ki, elçiliyə gəlsinlər. Amma qız evi, yox, deyib durmuşdu: - yeri-yurdu bilinmir, deyirdilər, biz tanımadığımız yerə qız vermərik.

Biz qızla bir yerdə çox düşündük, Rəsul Rzadan başqa ağlımıza heç kim gəlmədi. Rəsul Rza şeirlərimi oxuyub bəyənmişdi, radionun "Ədəbi axşamlar" verilişində mənim haqqımda çıxış edəcəkdi... Verilişin vaxtını-vədəsini qıza dedim. Qızın qohum-əqrabası, eşitdiyimə görə, bütün kənd əhli həmin vaxt radionun başına yığışıb verilişi dinlədilər. Rəsul Rza haqqımda elə isti sözlər dedi, qız səhər tezdən, dərs başlamamış xəbər gətirdi ki, elçilər gəlsin...

Nə isə, indi yeri gəldi, dedim, böyük ustadın ruhu şad olsun.

Yazıçılar İttifaqında az-az gördüyüm İlyas Əfəndiyev xüsusi olaraq "Dəyirman"ın müdafiəsi üçün gəlib İmran Qasımovla yanaşı oturmuşdu. Ənvər Məmmədxanlı ordaydı. İsmayıl Şıxlı, Anar, İsi Məlikzadə, Əkrəm Əylisli, Xəlil Rza hamısı gəlmişdi. Dərindən oxuduğum, yəni hər birinin yaradıcılığına bələd olduğum, yaxşı tanıdığım yazıçılar idi, çətin anımda mənimlə olduqlarına görə ürəklənmişdim, narahatlığım getmişdi, artıq heç nə vecimə deyildi...

Xəlil Rza belə bir hadisə danışdı, indinin özündə də çox xarakterik olduğu üçün qeyd etməyi lazım bildim.

"Gələndə yolumu "Təbliğat və təşviqat" jurnalından saldım, dedim "Dəyirman"ın müzakirəsinə gedirəm, yazdığım yazını da göstərdim ki, gedirəm müdafiə etməyə. İndi yazını tapa bilmirəm, ordan götürüblər. Amma bilmirlər ki, o yazının müdafiəsi içimdə, ürəyimdədi, hər yerdə müdafiəsinə hazıram."

Müzakirəni o zamanlar AYİ-nin katibi, həmişə yazdıqlarıma sevindiyini, hər yerdə köməyini, dəstəyini hiss etdiyim Elçin aparırdı...

Yadımdadı müzakirənin ən qaynar yerində qaragüruh məni görmək istədi, adının çəkilməyini lazım bilmədiyim görkəmli bir yazıçı:

- Ayağa qalxsın, - dedi, - müəllif, görək belə xatalı əsərləri yazan kimdi?

Mən arxada küncdə oturmuşdum. Onu deyim ki, qorxudan, təhdiddən, tənqidlərdən, təhqirlərdən yox, daha çox məni müdafiə eləyən insanların sözlərindən qəhərlənmişdim, qəhərdən boğazım ağrımağa başlamışdı... (qəhərdən boğazın gəlməyini, ağrımağını sonralar bildim).

Yazdığım əsərlərə görə elə bilirdilər, "əjdaha" görəcəklər, amma yerindən qalxanda da oturanlarla bir boyda olan utancaq, cavan bir oğlan gördülər. İmran müəllim əliylə işarə elədi ki, otur. Elə bilirdi, nəsə deyəcəm, cavab qaytaracam. Mən sakitcə oturdum...

Vaqif Yusifli müzakirənin stenoqrammasını yazırdı. Səhv eləmirəmsə, sonralar hardasa nəşr olundu...

"Dəyirman"ın taleyi Yazıçılar İttifaqındakı müzakirəylə bitmədi. "Povestin əleyhinə olan on beşəcən yazıçı-jurnalist Mərkəzi Komitənin birinci katibi Heydər Əliyevin qəbuluna getdilər.

O vaxt "Azərbaycan" jurnalının baş redaktoru olan Əkrəm Əylisliylə məni Yazıçılar İttifaqının sədri İmran Qasımov yanına çağırıb dedi:

- Yoldaş Heydər Əliyev elə indi zəng eləmişdi, deyir, nə dəyirmandı elə, Respublikada başqa söz-söhbət yoxdu, toyda da dəyirman, yasda da dəyirman. Göndər, oxuyum, görüm, nədi o elə. Mən də göndərmişəm...cavabını gözləyək.

Bir neçə gündən sonra İmran müəllim bizi yenə çağırtdırdı:

- Yoldaş Əliyev "Dəyirman"ı oxuyub, hətta oxumaq üçün qardaşı akademik Həsən Əliyevə də verib. İstedadlı yazıdı, dedi, gənc yazıçını qorumaq lazımdı, amma ona tapşır ki, hər şeyi tünd boyada görməsin, işıqlı cəhətləri də görsün. "Yeqo nado perenapravit", burasını da rusca dedi.

*Ardı 7-ci səhifədə*



# Əsirlikdən xilas etdiyim kitablar

**Ağdərəyə ilk ezamiyyətimdə Çıldıran və Manikli kəndlərinə qədər gedib çıxdım. Ağdama ilk ezamiyyətimdə isə yolum Əlağalılar və Qalayçılar kəndinəcən uzandı. İkinci, üçüncü ezamiyyətlərimdə isə yollarım yavaş-yavaş qısaldı. Həmin günlərdə Çıldıranı, Maniklini, Əlağalıları, Qalayçıları və başqa kəndlərimizi od içində gördüm. Azğınlaşmış ermənilər torpaqlarımızı kənd-kənd, qəsəbə-qəsəbə işğal edirdilər. Evlər yandırılır, insanlar vəhşicəsinə, qəddarcasına öldürülür, qan su yerinə axırdı. Müharibədən əzab çəkən insanların ah-naləsi göyə yüksəlirdi.**

O vaxtlar ordumuz indiki kimi güclü və qüdrətli deyildi. Neçə illər əvvəlcədən hərtərəfli hazırlıq işi görmüş ermənilər ordu yaranmamışdan torpaqlarımıza hücum etmiş, müharibə başlanmışdı. Döyüşə-döyüşə ordu qurmağın da çətinlikləri var idi. O gərgin günlərdə torpaqlarımızın müdafiəsində dayanan silahlı birləşmələr vahid mərkəzdən idarə olunmurdu, ona görə də nizam-intizam çox zəif idi. Ordumuzun tərkib hissəsini, əsasən, ürəyində Vətən eşqi olan könüllülər təşkil edirdi. İxtisaslı zabitlər yox dərəcəsindəydi. Bunlar da döyüşlərin gedişinə təsirsiz ötüşmürdü, uğursuzluğa gətirib çıxarırdı. Sonda isə torpaqlarımız - kənd və şəhərlərimiz işğal olunurdu. Qarşısı alınmayan azğınlaşmış düşmən getdikcə irəliləyirdi.

Ağdam uğrunda gedən qanlı döyüşlər iyul ayının qora bişirən günlərinin hərarətini bir az da artırmışdı. Gərginlik son həddə çatmışdı, bıçaq sümüyə dirənmişdi. Strateji yüksəkliklər ermənilərin əlinə keçdiyindən, şəhər işğal olunmaq təhlükəsi ərəfəsindəydi. Bu aramsız hücumları dayandırmaq üçün bütün qüvvələr səfərbər olunmuşdu.

Ezam olunduğum hərbi hissənin qərargahı məktəb binasında yerləşirdi. Neçə vaxtdan bəri idi ki, təhsil ocağında dərslər dayandırılmışdı. Qanlı müharibə məktəb yollarını şagirdlərin, müəllimlərin üzünə bağlamışdı. Bina hərbçilərin ixtiyarına verilmişdi. Hərdən birinci mərtəbədə yerləşən kitabxanaya gedirdim. Burada xeyli maraqlı və dəyərli kitablar var idi.

Yer-göy qan ağlayırdı. Hərbi hissənin şəxsi heyəti bütünlüklə şəhərin müdafiəsinə atılmışdı. Düşmən hücumları zəifləmək bilmirdi, atəş səsləri dağı, daşı silkələyirdi. Yer-göy qan ağlayırdı… Döyüşlərin gedişindən hiss olunurdu ki, şəhərin işğalı qaçılmazdır. Tibb məntəqəsindəki yaralılar, ehtiyat silah-sursat, hərbi avtomobillər, bir sözlə, bütün lazımi avadanlıqlar düşmən əlinə keçməsin deyə ərazidən çıxarılırdı. Belə çətin anda fikirləşdim ki, mən buradan nəyi xilas edim? Birdən kitablar yadıma düşdü. Tələm-tələsik özümü kitabxanaya saldım. Gücüm çatan qədər kitabları üst-üstə yığıb iki bağlama hazırlayıb götürdüm. İmkanım olsaydı oradakı kitabların hamısını çıxarardım. Təəssüf ki, buna gücüm çatmırdı. Ağır da olsa, o kitabları ermənilərin əlinə düşməkdən, əsirlikdən, yanmaqdan qoruyub şəhərdən çıxardım.

İndi o kitablar gərgin günlərdən ağrılı bir nişanə kimi qalır. Hər dəfə onları görəndə, vərəqləyib oxuyanda o ağır anlar, o gərgin dəqiqələr gözlərim önündə canlanır. Gətirə bilmədiyim kitablar isə orada qaldı. Ermənilər onları yandırıb kül elədilər. Heç olmasa, iki bağlama kitabı düşmən əsirliyindən qurtarmağımla təsəlli tapıram – çarəsiz təsəlli…

**Vahid MƏHƏRRƏMOV**

# İkinci doğum günü


Nəriman ƏBDÜLRƏHMANLI

**Düz 30 il əvvəl – 1986-cı il avqust ayının 31-də dünya keçmiş SSRİ-də baş verən ən böyük qəzalardan birinin şahidi oldu...**

Gürcüstanın Batumi limanı ilə Ukraynanın Odessa limanı arasında kruiz səfərinə çıxan nəhəng "Admiral Naximov" gəmisi ara dayanacaq olan Novorossiysk limanından çıxanda "Pyotr Vasyov" gəmisi ilə toqquşdu və qısa müddətdə dənizə qərq oldu...

Gəminin göyərtəsindəki 1000 nəfərəcən sərnişin və ekipaj üzvündən təxminən yarısı Qara dənizin sularına qərq oldu. Həmin vaxtlar SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevin rəhbərliyi altında yaradılmış komissiya qəzanın nəticələrini aradan qaldırmaq üçün uzun müddət işləməli oldu...

O dəhşətli qəzanın şahidi, ya da qurbanları arasında mən də ola bilərdim. Amma ilahi bir təsadüf nəticəsində fəlakətdən yaxa qurtara bildim...

Həmin avqust günlərində (Onda Gürcüstanda yaşayırdım) lap təsadüfən əldə elədiyim putyovka ilə Batumi yaxınlığındakı Maxincauri sanatoriyasında dincəlirdim. Otaq yoldaşım münasib adam idi, adlı-sanlı müəllim kimi tanınırdı. Onunla söhbətimiz tuturdu, proseduralardan sonrakı vaxtlarda təbiətin qoynuna gəzməyə çıxır, xüsusilə gecələr işıldaquşlara tamaşa eləməyi xoşlayırdıq.

Avqustun 29-da Batumini gəzməyə getmişdik. Təbii ki, bulvara və limana da baş çəkdik. Onda limanda dayanmış "Admiral Naximov"u gördük, Odessaya üç günlük kruiz olduğunu öyrənəndə könlümüzə səfər düşdü. Əslində, müalicəmiz formal xarakter daşıyırdı, daha çox gəzməyə və görməyə meyilli idik. Pulumuz da vardı, Novorossiysk və Odessa şəhərlərini görmək pis olmazdı. Məsləhətləşib qərara gəldik ki, gedək.

Səfərə çıxmaq istəyənlər kifayət qədər idi, bilet kassalarının qarşısına xeyli adam yığışmışdı. Azı bir saat növbədə dayanmalı olduq. Amma növbəmizin çatmasına təxminən 10-12 nəfər qalanda məlum oldu ki, bilet tükənib. Bərk dilxor olduq, hətta xeyli dolaşıb əlaltından bilet almaq üçün də bəxtimizi sınadıq. Amma "bəxtimiz gətirmədi", cəmi bir bilet tapdıq, amma səfərə tək getmək fikrində deyildik. Pərişan halda gəminin fonunda şəkil çəkdirib "Dərdimizi dağıtmağa" getdik...

Sonrakı gün o uğursuzluğun doğurduğu ovqat hələ də bizi tərk eləməmişdi.

Avqustun 31-də axşam gəzintisindən qayıdıb televizorda xəbərlərə baxanda heyrətdən az qala dilimiz tutuldu: səfərə çıxmaq istədiyimiz "Admiral Naximov" gəmisi Novorossiysk limanında qəzaya uğramışdı! O fəlakətdən xilas olduğumuza uzun müddət inana bilmədik. Əlbəttə, yuxu da, istirahət də yaddan çıxdı, gecəyarısı şəhərə gedib "ikinci doğum günümüzü" qeyd eləməli olduq. Fəlakətin miqyasını isə sonrakı günlər daha aydın hiss elədik. Qara dənizin suları yüzlərlə insana məzar olmuşdu...

Əlbəttə, bütün bunların həqiqət olduğuna bir də fotoaparatın yaddaşındakı kadrları görəndə inandıq. Fonda "Admiral Naximov" bərəsi və Batumi limanının mənzərəsi aydın göründü...

Həmin vaxtdan hər il avqustun 31-ni birgə keçirməyə, qəzanın qurbanlarını yad, "ikinci doğum günümüzü" isə qeyd eləməyə söz verdik...

# "Ağlıma gəlməzdi ki, "Dəyirman"a belə hücumlar ola bilər..."

*Əvvəli 6-cı səhifədə*

Beləcə, o, böyük, işıqlı insan "Dəyirman"ı müdafiə etdi, qaragüruhun əlindən qurtardım...Həmin vaxtlar Heydər Əliyevin qəbulunda olan jurnalistlərdən biri o görüş haqda mənə bəzi məqamları çatdırmışdı...

"Bizi görən kimi dedi:

- Nolub, nə baş verib, yoldaş yazıçılar, nə həyəcandı belə?!

Hərənin əlində bir "Azərbaycan" jurnalı vardı, Heydər Əliyevə uzatdılar, tanınmış qadın yazıçılar da vardı, hərəsi bir yandan səs-səsə verdi:

- Yoldaş Əliyev, biz təhqir olunmuşuq, cəmiyyətimizə qara ləkələr vurulub, böhtanlar atılıb. Povestdə yetmiş iki söyüş var, sayıb altını xətləmişik... Baxa bilərsiniz.

Heydər Əliyev jurnalı vərəqləyir, qırmızı rənglə altı cızılmış sözləri oxuduqca gülümsəyirdi. Birinə çatanda qəh-qəhə çəkib bərkdən güldü, dedi:

- Onda gərək rus xalqı Şoloxovu məhkəməyə versin...

Elə bu münasibət də mənim gələcək taleyimi həll etdi...

"Dəyirman"dan sonra başladığım "Köç" romanını yazıb qurtardım. Bir neçə ilin içində ədəbi mühitdə hadisə olan əsərlər yarandı.

**-"Dəyirman"dakı obrazların arasında yaxından tanıdığınız kənd adamları varmı? Yəni həyatdan götürdüyünüz qohum, dost, qonşu... və s. Obrazların tam, dolğun, mükəmməl alındığına görə oxucu istər-istəməz bu qənaətə gəlir:**

- Böyük çıxmasın, üzr istəyirəm, həmişə çalışmışam və çalışıram ki, mənim yaratdıqlarım da dolğunluğu, tamlığıyla həyatda olduğu kimi olsunlar; doğulsunlar, böyüsünlər, necə varsa, eləcə ad-san qazansınlar. Mən yox, onların özləri özlərini tanıtsınlar. Belə olmasa yazı da içindəkilərlə bir yerdə bir an belə yaşamaz.

Mən yaratdıqlarımla yaşayıram, əsər bitəndən sonra da mənimlə qalırlar, onlar da mənim mühitimdi! İşlədiyim hər hansı obraza nə gəldi ad qoya bilmirəm, özü yarandıqca adı da yaranır. Elə olur yazının ortalarında görürəm ki, bunun adı, məsələn, Ninniymiş ("Şanapipik" povestində ).

Çoxunun adı heç gəlib çıxmır, adsız işləyirəm, məsələn, "Dəyirman"da dəyirmançıya axıracan ad tapa bilmədim, nə ad qoydum hiss edəmmədim. Eləcə adsız yazdım, Dəyirmançı... Əsərdəki Kök adam, Qızıl oğlanlar, kababçı Göyçək də eləcə... axıracan öz adlarını demədilər.

Elə obraz var, tanıdığım bir neçə adamdan nəsə götürüb yaratmışam, ziddiyətli alındığı da ona görədi. Həyatda da ziddiyyətli, çoxqatlı, çətin tanınan adamlar var ki, ömür boyu halına bələd olammazsan. Əlbəttə, əgər münasibətləri düzgün seçib, düzgün işləyirsənsə yaşayır, başqa cür yaşamaz.

"Ot" povestində, dediyim kimi, adı alınmayan tənha bir qadın obrazı işləyirdim, hara gedirdi əsgərlikdə olan oğlu üçün qız bəyənirdi. Az danışan, yatağan, bir az da anlaşılmaz, elin-obanın "tünəkə" dediyi qadınlardandı.

Yenə bir evə getdi, masanın üstündə nar vardı, narı görən kimi əlini uzatdı, amma əli nara çatanacan mürgülədi, əli nara dəyəndə oyanıb "...ürəyim ağlar qalmış da nar istəyir... dedi" ...Bunu yazanda gördüm ki, qadının adı Pişidi...

Nə isə, mənə görə əsərdə adlar da əsas olanlardan biridi.

**- Maraqlıdı, yaşlı ədəbi nəslin "Dəyirman"ı bəyənməməsi anlaşılandı, bəs, ümumilikdə əsərə gənc yazıçıların münasibəti necədir?**

- Bəxtiyar Vahabzadə "Dəyirman"ı heç bəyənməmişdi, ona görə də müzakirəyə gəlməmişdim, - dedi, Bəxtiyar müəllim. "Köç" romanını oxuyandan sonra - sən sərrast atıcısan, (necə var, elə deyirəm) amma "Dəyirman"da atdığın güllələr gülü-çiçəyi biçirdi, "Köç"də hədəfi vurmusan, düz vurmusan, boşa çıxan güllən yoxdu..."dedi.

Az sonra "Ədəbiyyat" qəzetində "Mövlud Sülymanlıya açıq məktub"u çıxdı. Məktubda belə yerlər vardı, "...Əzizim Mövlud, sən mənim həmişə can atdığım zirvədən uçmağa başlamısan.." Bu əslində Bəxtiyar Vahabzadənin böyüklüyünü göstərir, mənim yox. O vaxtlar təşəkkür eləyəndə belə də dedim...

Geniş ürəkli insanlar çox idi, yaşamış olduğum bu yetmiş üç illik ömrümdə gördüklərimi gördüm. İndi yazılarımı sinirə bilməyən dostlarım daha çoxdu, canları sağ olsun, bunun özü hardasa əzilmək kimi bir şeydi, deyib, çox da bənd olmuram...

**- Sonda sizə təsir etmiş məşhur əsərlər barədə danışaq.**

- Belə əsərlər var, az da deyil. Nə yaxşı ki, var. Bir yandan da bizi, yəni, dünya əhalisini belə sənət əsərləri birləşdirir, mətləbləri anladır; sərhədlər-sınırlar aradan götürülür, bu yazıların köməyiylə bir-birimizə əl uzadırıq, dünyanı öz evimiz kimi anlayırıq. Sərhədlərin olmasına fikir vermə. Sərhədlər ayaq saxlamaqdan, baş qatmaqdan başqa bir şey deyil. Sərhəd indilərin işidi, iştahın, tamahın yarandığı günlərdən qalmadı...

Düşünək, Sudan, Torpaqdan, Oddan, Havadan başqa heç nəyimiz yoxdu. Günəş kimindi ki? Bizimdi... ayrı-ayrılıqda yox, bütövlükdə bizimdi, səni burda necə isidirsə məni də orda elə isidir.

İndi oxuduğum məşhur əsərlərin adlarını çəkib vaxt almayım, bir zamanlar çox dəbdəydi, üzə çıxan savadını göstərmək üçün belə eləyirdi. Sadəcə arzu edirəm ki, məşhur əsərlər həmişə yazılsın, bu cür əsərlə də təbiət hadisəsidi...

**Elmin NURİ**

# Yalançı ekvivalentlər lüğəti

**Türkiyə türkcəsi və Azərbaycan dili genealoji baxımdan qohum dillər olub, türk xalqları ailəsinin Oğuz qrupuna daxildir. Bu dillərin etnik qohumluğu, qədim ümumtürk dilinin varisləri olması, qrammatik quruluş və əsas lüğət fondlarının müştərəkliyi bəzən belə yanlış təsəvvür yaradır ki, bu iki dil tamamilə eynidir və hər bir azərbaycanlı müasir türkcəni öyrənməyə ehtiyac duymadan bu dildə sərbəst danışa, türkcədən dilimizə və əksinə, adekvat şifahi və yazılı tərcümə edə bilər. Bu düşüncə Azərbaycan dilinə münasibətdə Türkiyə türklərinə də hakimdir. Halbuki Türkiyə türkcəsi və Azərbaycan dilinin müasir sinxron vəziyyətinin müqayisəli təhlili göstərir ki, həmin dillər arasında fərqlər var. Bu lüğət həmin fərqlərdən bir qisminin – yalançı ekvivalentlərin izahı üçün nəzərdə tutulub.**

**Əsgər RƏSULOV,**
**Filologiya elmləri doktoru, professor**

*(Əvvəli ötən saylarımızda)*

**Kazan** – qazan(xana); kazan dairesi – qazanxana, ocaqxana; Kazan dairesinde buhar makineleri, kalorifer tesisatı, suyun kaynatıldığı kazanlar vardı.

**Kazancı** – ocaqçı, külxançı; Apartımanın kazan dairesinde kazancı olarak üç beş kuruş kazanıyordu.

**Kazandibi** – 1. sonbeşik (övlad); 2. firni növü; İki gün evvel bir muhallebici dükkânının vitrinindeki kazandibine imrendim. Üç çocuğu vardı, oğlan kazandibiydi.

**Kazanmak** – 1. qəbul olmaq; 2. qələbə çalmak, udmaq; Üniversiteyi kazanmak – universitetə qəbul olunmaq. Futbol maçını kazanmak istiyorlardı.

**Kazayağı** – 1. çəngəl (qarmaq) növü; 2. dördyol ağzı; 3. açıq-tutuncu rəng; 4. çarpaz; Çarşıdan aldığı bluz kazayağı renkte idi. Terzi kumaşı Hristo teyeli denilen kazayağı biçiminde makasladı.

**Kebe** – qısa yapıncı; Eşek gitti, üstünde yeni kebe de vardı.

**Kelek** – 1. kəl, dazlaşmış, yer-yer tükü tökülmüş (dəri); 2. kal, yetişməmiş (qovun) 3. tuluqlardan düzəldilmiş sal; Kahpe felek, kimine kavun yedirir, kimine kelek.

**Kelepir** – 1. müftə (çox ucuz) mal; 2. ögey övlad; Ben akıllı olmasaydım bu kelepiri elden kaçırırdım. Azərbaycan dilindəki kelepir türkcədə (kuzu)haşlama.

**Kemer** – donqa; kemerli burun – donqa burun; Aşırı kemerli burnunun benzeri dünyada sadece iki kişide vardı: biri Fatih Sultan Mehmet diğeri de Zeliha Teyze.

**Kent** – şəhər; Paris gibi bir kentte, bu hatırlamalar, karamsarlığa sürükler insanı. Azərbaycan dilindəki kənd türkcədə köy.

**Kentli** – şəhərli; Köylü kentli kavgası dünyanın her yerinde var ve bu bir kültür meselesidir. Azərbaycan dilindəki kəndli türkcədə köylü.

**Kepenek** – yapıncı, əba; Bu acayip meskeninde yaz kış kalın kepeneğe sarılmış otururdu. Azərbaycan dilindəki kəpənək türkcədə kelebek.

**Kerevet** – taxt, divan; Büyükbabamı, aşağı kattaki yemek odasına bitişik, kurnalı hamamın kerevetine uzattılar.

**Kerhane** – fahişəxana; Hani ev bark, hani çoluk çocuk / Ne geçti elime bu hayatın / Meyhanesinde, kerhanesinde? Azərbaycan dilindəki karxana türkcədə taş ocağı, karhane

**Kerpiç** – saman və palçıqdan hazırlanan çiy kərpic; Kerpiç evler, ipe serili çamaşırlar gibi ay ışığında sallanıyorlar. Azərbaycan dilindəki kərpic (bişmiş) türkcədə tuğla.

**Kesik** – 1. çürümüş süd; 2. çiy süddən hazırlanan şor; Bu kesiktir, ona çiğ sütten yapılan yağsız peynir ve ekşimik de denilir.

**Kesin** – qəti, qəti surətdə; Kazancı hanesine kesin dönüş yapmıştı.

**Kesinti** – 1. fasilə, dayanma; 2. tutulma (əməkhaqqından); Ödül olarak verilen paradan hiçbir kesinti yapılmaması lazım.

**Kesme** – 1. kəsmə, ayırma (işarəsi) – apostrof; 2. dəmir qayçısı; kesme şeker– qənd. Özel isimleri çekim eklerinde ayırmak çin araya kesme işareti konur.

**Kestirmek** – qabaqcadan bilmək, duymaq, sezmək; Bunu şimdiden kestirmek oldukça zordur.

**Kıç** – 1. bədənin yançaq hissəsi, sağrı, dal, qaba ət; 2. quyruq; Uçağın (geminin) kıçı – təyyarənin (gəminin) arxa hissəsi, quyruq qismi. O güzel kıçından sıkılınca götürüp en beter kerhaneye satarlardı. Azərbaycan dilindəki qıç türkcədə bacak.

**Kıl** – 1. geyimi-keçimi, yaxud danışıq və davranışları bəyənilməyən; adamayovuşmaz; Kıl olmak – birindən xoşlanmamaq, birinin davranışından əsəbiləşmək; Tarkan`ın "Kıl oldum abi" şarkısın dinlediniz mi?

**Kılağı** – 1. qaraquş (dırnaq məyası); 2. tilişkə, qırıntı (metalda); Ustam bıçak ve usturalar çarkta biledikten sonra keskin taraflarında kalan kılağıları bana temizletir, ben de bu incecik kıl gibi kalıntıları itinayla perdahlardım.

**Kılıçlama** – çəpinə, çəp, çəpəki, çapraz; Delikanlı çantayı omuzundan kılıçlama asmıştı.

**Kılık** – 1. zahiri görünüş; 2. geyim, paltar, forma; Kılık kıyafet – geyim, üst-baş. Delikanlı kopuklar, kılıklarından, giyinişlerinden belli oluyorlar.

**Kınak** – oynaq, buğum (barmaqda); Sol elinin parmaklarının kınaklarında hafif sızı vardı. Azərbaycan dilindəki qınaq türkcədə kınama.

**Kır I** – ağarmış, çal (rəng), boz, bozumtul; Kır at – boz (çal) at. Gözlerinden, kırları artan sakalına bir iki damla yaş düştü.

**Kır II** – çöl, step, bozqır, düz; Araba tenha, düz yolda tıkır tıkır gidiyor, ara sıra kır kokuları getiren hafif bir rüzgâr esiyordu.

**Kıran** – epidemiya, qırğın, azar. Kıranları ve zelzeleleri, feyezanları ve harpleri görmüşlerdir.

**Kırdırmak** – nəğdə çevirmək, qiymətini aşağı salmaq (səhm, veksel və s. kimi qiymətli kağızları); Kalemindeki odacıya aylığını kırdırırmış. Firmaya verdiği teklif fiyatını son dakikada bir yüzde yirmi daha kırdırdı.

**Kırıcı** – 1. sərraf; 2. qadağan olunan fəndlərdən istifadə edən (idman oyununda); 3. bükücü (poliqrafiyada); 4. başqasının xətrinə dəyən, kobud; Her seferinde olduğu gibi yine de arkadaşlarına karşı kırıcı bir davranış sergiledi. Azərbaycan dilindəki qırıcı türkcədə jet (avcı) uçağı.

**Kırık** – 1. qeyri-kafi (qiymət), kəsir; 2. oynaş, sevgili; 3. nərddə vurulmuş daş; 4. mələz; Üç dersten kırığı var.

**Kırıklık** – 1. süqut, məyusluq, ümidi kəsilmə; 2. yorğunluq, süstlük, əzginlik, ağrı, sızıltı; Hayal (düş) kırıklığı – məyus olma, ümidi boşa çıxma, həvəsdən düşmə. Vücudumda daimî bir kırıklık var.

**Kırılmak** – 1. yorulub əldən düşmək; 2. birinə hirslənmək, acığı tutmaq, birindən incimək, küsmək; Dünkü hareketine epey kırıldım, bunu bana yapmaya hakkın yoktu.

**Kırışmak** – 1. küsüşmək; 2. mərcləşmək; 3. bölüşmək, paylaşmaq (pulu); 4. qır vermək, əzilib-büzülmək, naz etmək; Kazandıkları parayı eşit olarak kırıştılar.

**Kırklamak** – 1. qırxı çıxmaq (yeni doğulan körpənin, vəfat edənin və s.); 2. sofuluq etmək, vas-vası olmaq (paltar, qab və s. yuyub-durulamaqda). Ben bu itin murdar ettiği kabı kacağı nasıl kırklarım?

**Kırlaşmak** – 1. çallaşmaq, ağarmaq (saçda); 2. çölləşmək; Bir ay boyunca, kırlaşan saçlarına tarak sürmedi. Burası memleketin bir temiz köşesi, şehrin kırlaşmış bir bucağı.

**Kırma** – 1. qırçın, bükük, büzmə (paltarda); 2. bükmə, qatlama. 3. mələz, hibrid; Arap kırması bir at – yarımcins ərəb atı. Mustafa, kırma tüfeğe bir kurşun sürdü. Azərbaycan dilindəki qırma türkcədə saçma.

**Kırmak** – 1. döndərmək, çevirmək; 2. qaçmaq; 3. qiyməti salmaq; 4. vurmaq (nərd oyununda daşı); 5. xətrinə dəymək, incitmək, küsdürmək; Direksiyon kırmak – rulu döndərmək. Okul kırmak – məktəbdən, dərsdən qaçmaq; Teklif edilen ihale fiyatını yüzde on beş daha kırdı. Bazen bir kelimenin, bir ses tonunun sevdiğimiz bir insanı kırdığını görürüz.

**Kısır** – 1. məntiqsizlik; 2. çıxılmaz vəziyyət; 3. qapalı dairə; 4. qısır; Aksi takdirde insanlık bu kısır döngüden çıkamaz.

**Kışkırtı** – təhrik, təhrikçilik, qızışdırıcılıq; Çünkü onlar, toplumun genel kültür düzeyine yatkın bir kışkırtıdan yana görünmüyorlar.

**Kışkırtma** – təhrik etmə, qızışdırma, provokasiya; Meydanda toplanan gençleri birileri kışkırtmaya başlamıştı bile.

**Kışkırtmak** – təhrik etmək, qızışdırmaq, fitləmək, salışdırmaq; Salondakileri kışkırtmak, başkanı kürsüden indirmek lazımdı.

**Kışla** – hərbi kazarma; Gece gündüz kışlada kaldığımızdan sivil hayat ile temasımız pek azdı.

**Kıvırmak** – 1. burcutmaq, yırğalanmaq; 2. (bir işdən) boyun qaçırmaq; Fıstığa bakar mısın, kalçalarını nasıl kıvırıyor?

**Kıymak** – ət çəkmək, qiymə hazırlamaq; Mutfak işlerini tamaladı, bol miktar et kıydı, hazırladığı börekleri fırına verdi.

**Kızan** – gənc oğlan, yeniyetmə, dəliqanlı; Kızanlar köyü korumaya yemin ettiler.

**Kızdırma** – 1. hirsləndirmə, əsəbiləşdirmə, acıqlandırma, qəzəbləndirmə; 2. tənək, üzüm çubuğu basdırma (kök atması üçün); Lütfen yine beni kızdırma, zaten bugün havamda değilim. Azərbaycan dilindəki qızdırma türkcədə ateş, hararet, ısıtma.

**Kızdırmak** – hirsləndirmək, əsəbiləşdirmək, acıqlandırmaq, qəzəbləndirmək; Onu kızdırmak için elinden geleni yapıyordu, fakat muvaffak olamıyordu. Azərbaycan dilindəki qızdırmaq türkcədə ateşli olmak, ısıtmak.

**Kızgın** – hirsli, acıqlı, qeyzli; Odaya kızgın bir ihtiyar girdi.

**Kızıl** – qırmızı, qızılı; Olev adlı, kızıl saçlı, kızıl bıyıklı, çam yarması bir adam. Azərbaycan dilindəki qızıl türkcədə altın.

**Kızılca** – qızılı (rəng), qırmızımtıl; Azərbaycan dilindəki qızılca türkcədə kızamık.

**Kızılcık** – zoğal; Kan kusar, kızılcık suyu içtim der.

**Kızkardeş** – bacı; Biz ailede üç çocuğuz – kızkardeşim, kardeşim ve ben.

**Kızmak** – hirslənmək, əsəbiləşmək, qeyzlənmək, acıqlanmaq; Ne gaflet, cicianne olsa nasıl kızardı şimdi.

**Kızoğlan** – bakirə; Köyde de, kentte de kızoğlan kız olmak namus simgesi sayılır.

**Kilo** – kilo; Kilo almak – kökəlmək; Kilo vermək – arıqlamaq; İştah yok, kilo almam gerekirken ben kilo veriyorum.

**Kimi** – (vurğu ilk hecanın üzərindədir) bəzi; Kimi müşteriler minnettarlık ifade ediyorlardı.

**Kimlik** – 1. şəxsiyyət; 2. şəxsiyyət vəsiqəsi, şəhadətnamə; 3. kimlik; Sanırım uzun zaman kimliğini korumak, güçlü kalabilmek için direndi. Ünlü işadamı kimliği bilinmeyen kişi veya kişilerin saldırısına uğradı.

**Kip** – 1. şəkil, forma (qrammatikada); 2. dəyişə bilən keyfiyyət (fəlsəfədə); Fiilin emir kipi üçüncü kişi tekildə dürt çeşitli "sın" ekiyle yapılır.

**Kiriş** – 1. tir, şalban; 2. vətər (anatomiyada); 3. iki əyrini birləşdirən düz xətt. Kasları kemiklere ve başka organlara bağlayan beyazımsı kordona kiriş denir.

**Kişi** – şəxs, nəfər, adam, fərd; Azərbaycan dilindəki kişi türkcədə erkek. Sınıfta, sürekli olarak numarası yaramazlar listesinin başına yazılan kişi bendim.

**Kişilik** – 1. şəxsiyyət, kimlik, xarakter; 2. nəfərlik; On dokuz yaşına vardığında Asya kendi kişiliğini ve bağımsızlığını kanıtlama ihtiyacıyla yanıp tutuşuyordu. Lokantada yedi kişilik masa ayırttı.

**Kitaplık** – 1. kitab şkafı, kitab rəfi; 2. kitabxana, kitab saxlanılan otaq; Kızını doktorun muayene odasına açılan kitaplığa gönderdi.



*Davamı gələn sayımızda*

Aydın YOL 9
N 29(88) 26.08.2016

**Azərbaycan əsilli görkəmli türk yazıçısı, siyasətçi və dövlət xadimi Səməd Ağaoğlu (1909-1982) çağdaş Türkiyədə memuar ədəbiyyatının aparıcı nümayəndələrindən biri kimi tanınır. Onun oxuculara təqdim olunan "Atamın dostları" kitabında atası, XX əsrin ilk onilliklərində Azərbaycanın və Türkiyənin fikir həyatında müstəsna xidmətləri olmuş Əhməd Ağaoğlu (1869-1939) ilə türkçülük hərəkatında, sənət və siyasət aləmində, yeni Türkiyənin qurulması uğrunda mübarizədə çiyin-çiyinə addımlayan bir sıra şəxsiyyətlərin portretləri yaradılıb. Müəllifin əsasən ad çəkmədən son dərəcə səciyyəvi cizgilərlə rəsm etdiyi bu portretlər həmin şəxslərin, eləcə də Əhməd Ağaoğlunun həyatının, mübarizə və ideallarının bir sıra xüsusiyyət və keyfiyyətlərini aşkara çıxarır.**





# Atamın dostları

**Səməd AĞAOĞLU**

*(Əvvəli ötən saylarımızda)*

*"Malta, Polverista, 25 aprel 1921-ci il.*

*Əzizim Sitarə və Humay!*

Bu məktubu yazarkən duyduğum hissiyyatı bilmirəm sizə necə yetirim. Həm əsəbiləşir, həm də gülürəm. Əsəbiləşirəm, çünki artıq azad olduğuma dair vurduğum teleqramdan düz bir ay keçdi. Siz bu qədər intizar çəkdiniz, halbuki mən hələ buradayam. Gülürəm, çünki bir aydan bəri hər gün və hər dəqiqə yola düşmək ehtimalı var və hər gün ortaya yeni bir xəbər çıxır, ümidlərimizi sönməyə qoymur. İndi də Romadan aldığımız məlumata görə, bura bir siyahı gəlib. O siyahıya əsasən, 40 nəfər dərhal yola düşəcək, 24 nəfər isə ingilis əsgərləri[1] bura təslim edildikdən sonra yola düşəcək. Bir siyahıya görə mən o 40 adamın, o birinə görə isə hələlik gözləməli olacaq 24 nəfərin içərisindəyəm. Amma 24 nəfərin yola düşməsi də çox uzun çəkməyəcək. Lakin bütün bu hesablar sırf təxmindən başqa bir şey deyil. Heç kim dəqiq bilmir. Dəqiq olan bizim tükənməz ümidimiz və hər gün bir gəminin adaya yaxınlaşıb bizi götürməsi ehtimalıdır. Özünüz düşünün, bu intizar və təəssüflər içərisində nələr çəkirik. Amma bütün bunlara baxmayaraq sizi tam inandırıram ki, yola düşəcəyimiz gün çox yaxınlaşıb. Hətta bu məktubdan əvvəl sizə qovuşacağıma ümid edirəm. Yaqub dayımın oğlu hələ oradadırmı? Bizi İtaliyanın Neapol şəhərinə aparacaqları ehtimal olunur. O halda onunla Avropada görüşməyimi daha çox arzu edərdim. Neapola gələr-gəlməz sizə, əlbəttə, xəbər verəcəyəm və yola düşəcəyimiz günün dəqiq tarixini bildirəcəyəm..."

***

Anamın məktublarındakı qeyri-adi dərəcədə mətanət əhvali-ruhiyyəsinin müqabilində atamın məktublarında zaman-zaman zəiflik, kədər, ümidsizlik nəzərə çarpmaqdadır. Bu arada anamın qarşısında öz qüsurlarını etiraf etməsi, onun xəstəliklərinin yeganə səbəbi kimi özünü göstərməsi, atamın əsarət həyatında nə qədər vicdan əzablarına məruz qaldığının əlamətidir. Doğrudan da, atam anamın qarşısında günahkar idi. Çünki əsəbi, çılğın, davakar təbiəti hər kəsdən daha əvvəl və daha çox anamın başında çatlayırdı. Nəşə içərisində oturduğumuz yemək masasında kiçicik ehtiyatsızlığın atamı nə hallara saldığını, boşqabların, stəkanların yerə çırpıldığını, şorba kasalarının üstümüzə-başımıza dağıldığını sanki indi də görürəm. Hətta bu dava-dalaşlardan hafizəmdə gülməli səhnələr də qalıb. Havada uçaraq düz qarşımıza düşən bişmiş toyuq indi də gözlərimin qabağından çəkilmir. Bişmiş toyuğun bu canlı duruşu süfrədəki hiddəti bir anlıq yox etmişdi. Biz uşaqlar qəhqəhə ilə gülərək atamızdan şapalaq yeməmək üçün hərəmiz bir tərəfə qaçıb-dağılanda onun fikirli-fikirli otaqdan çıxdığını xatırlayıram. Yalnız anam həvəslə hazırladığı süfrənin pərişanlığı içərisində səssizcə oturub ağlayırdı.

Sonra lüzumsuz qısqanclıqlar, siyasi həyatın atamın içində topladığı mənfi hissiyyatın, hərəkətlərin, şikayətlərin, sözlərin evin içində boşalması, biri-birini təqib edən həyəcan və təhlükə dolu hadisələr - bütün bunlar anamı sürətlə əridir, çökdürürdü. Aman Allah, Malta əsarəti zamanı atamın yoxluğunu bizə hiss etdirməmək üçün o, özünü necə də oda-közə vururdu! Axşamlar yeni paltarlarımızı, ayaqqabılarımızı, corablarımızı heç bir əyarəskiyi olmadan yatağımızın baş tərəfinə qoya bilmək üçün ancaq anam qədər iztirab çəkməyi bacara bilən insan lazım idi. O, iztirablardan qüvvət alan bir insan idi. Bu fəlakətli illərdə əsarətə düşən atamın da, uzaq yerlərdə olan ailələrinin də yardımına yeni bitib-tükənmək bilməyən şəfqətlə yetişməyə çalışırdı. Sanki azacıq təsəllisini də fəlakətlərimizin müştərək olmasında tapmışdı. İşğal altındakı İstanbulda uşaqlarının əllərindən tutaraq mitinqdən-mitinqə gedir, mitinq hazırlayanlara yol göstərir, Anadoluya keçmək üçün bir neçə günlüyə "gözdən itmələri" lazım gələn dostları evimizdə saxlayır, cəsarətini daha da artırıb, erməni terrorçularının təqib etdikləri Behbud xan Cavanşirə yenə evimizdə sığınacaq verirdi. Burada anamın hadisələrin gedişini əvvəlcədən ustalıqla sezən intuitiv istedadına başqa bir misal gətirmək istəyirəm. Behbud xan evimizdə on-on beş gün qalandan sonra artıq xətanın sovuşduğu qənaətinə gəlib ortalığa çıxmağa qərar verdi. Anam qəti etiraz etdi. "Xeyr! - dedi, - küçəyə çıxandan 24 saat içində səni öldürəcəklər". Anamı dinləməyən Behbud xanı iki gün sonra erməni fədaisi (bu, erməni terrorçularının özlərinə verdikləri ad idi – V.Q.) Torlakyan, həqiqətən də, "Perepalas" mehmanxanasının yanında gecəyarısı öldürdü.

Anamın özünə görə dindarlığı vardı. Allaha inanır, "Sadat"dan-Peyğəmbər sülaləsinə mənsubluğundan iftixarla söz açırdı. Hansı məzhəbə bağlılıqlarından asılı olmayaraq insana qüvvət, mətanət, ümid verən bütün etiqadlara rəğbət duyurdu. Şiə olmasına rəğmən Ömərdən də Əli qədər möcüzə gözləyirdi. Bu inancının romantik, mistik tərəfləri də vardı. Əyyub Sultanda o öndə, mən də ətəyindən tutaraq arxasınca niyyət daşından keçdiyimizi, Ağbıyıqda, Fuad Köprülünün evində gecə qonaq qalıb dan yeri ağaranda içərisində atamı tezliklə yanımıza göndərməsi üçün Həzrəti Əliyə məktub qoyulmuş şüşələri neçə dəfə dənizə tulladığımızı indi də yaxşı xatırlayıram. Yenə bir müqəddəs günün sübh vaxtı gözlərini səmaya zilləyərək bütün dinlərin peyğəmbərlərinə, bütün məzhəblərin övliyalarına övladlarının atasının tezliklə əsarətdən qurtarıb ailəsinin yanına qaytarması üçün yalvarıb-yaxardığını eşitmişdim.

Bütün bu dualar nəhayət ki, qəbula yetdi. Bir gecəyarısı evimizin önündə dayanan maşından atam düşdü. O gecənin nəşəli şaşqınlığını unutmaq mümkündürmü? Atam hamımızı bir-bir qucaqlamaq istəyir, hamımız da ona eyni anda sarıla bilmək üçün çırpınırdıq. Bizim iki ilin içərisində ağlagəlməz dərəcədə böyüdüyümüzü zənn edərək çox iri ölçülü ayaqqabılar, içərisində itib-batdığımız gen paltarlar gətirmişdi. Yəqin ki, bu daha çox keçirdiyi həyəcanların törətdiyi yanlışlıq idi.

On gün sonra atam gizlicə Anadoluya keçdi. Bununla da həyatımızın fərqli bir dövrünə qədəm qoyduq. İstanbulun yerinə Ankara, köhnə dostlarımızın yerinə bəziləri istisna olmaqla tamamilə təzə dostlar gəldi. Sakarya müharibəsindən az sonra başlayan bu dövr - inqilablar, milli zəfərlər, türk millətinin maddi və mənəvi yüksəlişi yolunda təşəbbüslər içərisində keçən həyatımız ta Sərbəst Firqənin qurulmasına qədər davam etdi. Anam arxada qalmış fəlakət günlərinin acısını, bu məsud çağların nəşə və həyəcanı ilə unutmağa çalışırdı. Yazıqlar olsun ki, indi də səhhəti bütün müalicələrə baxmayaraq günü-gündən pozulur, keçmiş illərin bütün yorğunluqları kiçik, zəif vücudunu mərhəmətsizcəsinə çeynəyib əzirdi. Lakin zəkasının o qeyri-adi duyum qabiliyyətini heç bir qeybə uğramadan əvvəlki kimi qoruyub saxlamışdı. Yenə də atama ən yaxşı seçimləri təlqin etməyə, ən doğru yolları göstərməyə müvəffəq olurdu.

Anam atamla onun siyasət yoldaşları arasında bəzən birləşdirici, bəzən barışdırıcı, əksər hallarda isə orta hədd saxlayan hakim kimi çıxış edir, siyasət həyatının müxtəlif təzahürləri qarşısında müvazinətini qoruyub saxlamasını tənzimləyirdi. Bir tərəfdən atamın İttihad və Tərəqqi partiyasına mənsub əksər köhnə dostlarının qorxunc aqibətlərinin onun ruhunda yaratdığı dərin təsir və kədərin izlərini silməyə çalışarkən, digər tərəfdən də İstiqlal Məhkəməsinin qüdrətli hakimlərinə günahsız insanlara qıymamaları üçün yalvarmaqdan çəkinmirdi. Bəraət alan köhnə dostların ilk dəfə rahat şəraitdə görüşməläri üçün məhz bizim evdə hazırlıqlar görülürdü.

Sərbəst Firqə macərası başlandı. Anam həmişəki intuisiyası ilə hələ birinci gündən təşəbbüsün baş tutmayacağına inanmışdı. Atam "Qazi bu işin olmasını çox səmimiyyətlə istəyir, o öz razılığını verdikdən sonra niyə baş tutmasın?"- dedikdə anam başını aşağı saldı, "Paşa nə qədər səmimi olursa-olsun, sonda ya hadisələr başqa şəkil alacaq, ya da vəzifə kürsülərini, gələcəklərini itirməkdən qorxanlar hiylə, böhtan, iftira vasitəsi ilə Qazini əleyhimizə çevirəcəklər"- dedi.

Heyhat, yalnız üç ay çəkən qısa müddətdən sonra Sərbəst Firqə dağıldı, atam yenə aldandığını gördü, anam isə bu dəfə də haqlı çıxdı.

Sərbəst Firqə oyununun son pərdəsi qapandıqdan sonra atam İstanbula köçməyə qərar verdi. Anamın səhhəti də bunu zərurətə çevirmişdi. Atama İstanbul Darülfününunda professorluq verdilər. Nişandaşda köhnə, böyük bir ev aldı. Ailəmiz ora daşındı. Anamın xəstəliyi şiddətlənmişdi. Müalicə heç bir müsbət nəticə vermirdi, o, gözümüzün qabağında günbəgün geriləyirdi. Lakin vaxtının əksər hissəsini yataqda keçirməsinə baxmayaraq yenə də atamın bütün işləri ilə yaxından maraqlanır, məşğul olurdu. Evimizin böyük salonu yavaş-yavaş İstanbulun fikir və sənət adamlarının tez-tez toplandıqları mərkəzə çevrildi. Şair, rəssam, musiqişünas, mühərrir və tarixçilər – sənət və elm dünyamızın bir çox tanınmış şəxsiyyətləri bu salonda səhərə qədər çəkən söhbətlər aparır, fikir mübadilələri edirdilər. Atamın həyatının sonunda ətrafına topladığı intellektual çevrə o zaman düşüncələrin azad şəkildə söyləndiyi və bölüşdürüldüyü bir dərgah idi.

Bir gün atamın yanına iki nəfər gəldi. Birini çoxdan tanıyırdı. Digəri ilə tanış deyildi. Bir neçə saat danışdılar. Onlar gedəndən sonra atam anamın yatdığı otağa keçdi. "Sitarə,- dedi,- bir neçə şeyi, məsələn, bu qədim xalçaları satıb qəzet çıxarmaq istəyirəm, nə fikirləşirsən?"

Satlığa çıxarılacaq qədim xalçalar anamın evlərindən cehiz gətirdiyi, uşaq ikən üzərində oynadığı, həyatının bir çox hadisələrinə şahidlik etmiş qiymətli xatirələr idi. Bu həqiqi sənət əsərlərinin rəngarəng naxışları onun için keçmişdə qalmış ailəsi, evləri, bağçaları idi. Amma bununla belə yenə dərhal razı oldu. "Lap yaxşı, Əhməd! - dedi. - Bəs qəzeti kiminlə çıxaracaqsan?"

*[1] Malta sürgünlülərinin bir hissəsi Türkiyədəki Britaniya hərbi əsirləri ilə dəyişdirilmişdi. Belə bir məlumat var ki, həmin dövrdə Azərbaycan XKS sədri N.Nərimanovun keçmiş əqidə dostu Əhməd Ağaoğlunu əsarətdən azad etmək üçün Bakıdakı 3 nəfər ingilis əsiri ilə dəyişmək planı olub.*

*Davamı gələn sayımızda*

**Tərcümə edən:**
**Vilayət QULİYEV, professor**

# Orta əsrlərdə Azərbaycan səhiyyəsi

## Zamanı yüz illərlə qabaqlayan müalicə üsulları

**Təəssüflər olsun ki, bu gün İslam aləmi və onun sahibləndiyi elm dünyada əvvəlki gücündə deyil. Amma orta əsrlərdə müsəlman Şərqi bütün dünya elminin və mədəniyyətinin intibah mərkəzi hesab edilirdi. Elmin bütün sahələri ərəb dünyası, İran, Turan və Azərbaycanda inkişafın pik nöqtəsinə çatmışdı. Bütün elmlərdən hali olan ensiklopedik zəka daşıyıcılarına filosof adı verilirdi ki, onların tədqiqat obyekti həm dünyəvi, həm də dini elmlər olurdu. Şərq dünyasının ən böyük uğurlarından biri də o idi ki, alimlər tibbi fəlsəfədən ayırmayıb əsl xoşbəxtliyi ruhi və fiziki sağlamlığın vəhdətində görürdülər. Böyük təbib İbn Sinanın bütün əsərlərində həm ruhun kamilləşməsi, həm də vücudun sağalması əsas məqsəd kimi qabardılırdı. O, dünya tibb tarixinin ilk psixodiaqnostiki qəbul edilir. İbn Sina ilk dəfə olaraq, nəbzi yoxlamaqla insanın daxili xəstəlikləri haqqında da məlumat verirdi. Dahi təbib tibdə bir çox yeniliklərə imza atıb. Lakin bəhs edəcəyimiz əsas mövzu İbn Sina yox, Azərbaycan təbibləri olduğu üçün onun yalnız bir tibbi kəşfini diqqətə çatdırırıq: İbn Sina göz-şüa nəzəriyyəsini müdafiə edərək üst göz qapağının xaricə çıxması, davamlı olaraq ağ rəngə və ya qara baxmaqdan meydana gələn qar korluğu kimi daha öncə bəhs edilməyən xəstəliklər haqqında da təfsilatlı izahlar verib. İlk öncə müasir tibb elminin yaradıcısı İbn Sinadan danışmağımız heç də təsadüfi deyil. Hələ 980-1037-ci illərdə yaşamış böyük təbib Əbu Əli ibn Sina bütün Şərq ölkələrində, o cümlədən Azərbaycanda tibb sahəsində ən tanınmış alim sayılırdı. Onun "Tibb qanunları" əsərinin ən qədim nüsxələrindən biri Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda saxlanılır.**

İbn Sinadan sonra bütün Şərq dünyasında tibb sahəsində əsl inqilab baş verdi, bu da çox keçmədən Azərbaycanda da güclü təbiblərin yetişməsinə və şəfa ocaqlarının yaranmasına bir təkan oldu. Müsəlman alimlərindən İbn Cəssar cüzam xəstəliyini və onunla mübarizə metodlarını kəşf etdi. İbn Natiq isə əsrin bəlası sayılan vəbanın müalicəsini tapmaqla on minlərlə insanı ölümün cəngindən aldı. Kəmbur Vəsim adlı təbib vərəmi yaradan mikrobları aşkarlayıb onları məhv etməyin üsullarını tapdı. İbn Əmmar ilk dəfə göz əməliyyatını həyata keçirməklə tibb tarixində inqilab etmiş oldu. Əli ibn Abbas bədxassəli şişi əməliyyat etməklə insanların yaşamaq arzularına rəng qatdı. Daha sonra İbn Nəfisin kiçik qan dövranı prosesini kəşf etməsi, Əli ibn Ridvanın ilk xəstəxananı yaratması, İbn Baytarın ilk əczaçılıq kitabını yazması islam dünyasında tibbi başqa elmlərin zirvəsinə qaldırmış oldu.

### Tibb elminin intibah dövrü

Yuxarıda sadalanan elmi faktlarla yanaşı, Cabir Şafi tərəfindən yaradılan ilk kimya laboratoriyası, Fəxrəddin Razinin kəşf etdiyi tibbi spirt, Ağ Şəmsəddinin əsasını qoyduğu mikrob nəzəriyyəsi də Azərbaycandan yan keçə bilməzdi. Çünki Azərbaycanın iqtisadi və mədəni yöndən inkişaf etmiş şəhərləri daim Şərqin elm mərkəzləri olan Bağdad, Nişapur, Şamda baş verən yenilikləri izləyir və onlarla ayaqlaşmağa çalışırdı.

XIII-XIV əsrlərdə təkcə Cənubi Azərbaycanda 67 xəstəxana fəaliyyət göstərirdi. Xəstəxanalarda tibb və əczaçılıq elmləri üzrə peşəkar mütəxəssislər çalışırdı. XIV əsrin əvvəllərində Təbrizdə "Darüş-şifa" adlı elmi mərkəz təsis edildi ki, bura əslində tədris, tibb və elmi müəssisələri, o cümlədən rəsədxananı, birləşdirən bütöv bir şəhərcik idi. Mərkəzdə Azərbaycan alim və müəllimləri ilə yanaşı, müxtəlif ölkələrdən - Çindən, Hindistandan, Suriyadan və Misirdən - dəvət olunan mütəxəssislər də çalışırdı.

Amma burada əsas diqqət təbii ki, tibb sahəsinə idi. Akademiyanın nəzdində hələ o zaman 67 müalicə evi mövcud idi. Mərkəzdə təşkil olunan ilk sağlamlıq müəssisəsi "Rəşidiyyə" adlanırdı. Burada 50 həkim və onların hər birinin beş köməkçisi çalışırdı. Tibbin bir çox sahələri üzrə mütəxəssislər, hətta stomatoloqlar da burada hazırlanırdı. Akademiyanın nəzdində bir neçə aptek var idi. Burada işləyən həkimlərə yaşayış evləri verilirdi.

XV əsrdə Azərbaycan hökmdarı Sultan Yaqub Təbrizdə "Yeddi cənnət" sarayını inşa etdi. Həmin sarayda 1000 çarpayılıq xəstəxana və dünyanın hər yerindən, o cümlədən Hindistandan və Çindən gətirilən dərman vasitələri ilə təchiz olunan aptek vardı. Bu xəstəxanada səriştəli təbiblər çalışırdılar. "Səriştəli təbiblər" demişkən, bir az da, Azərbaycanın orta əsrlərdə yaşamış məşhur həkimlərindən danışaq:

### Azərbaycan təbibləri

**Bəhmənyar Azərbaycani** - İbn Sinadan fəlsəfə ilə bərabər tibb elminin də sirlərini öyrənib. O, özünün "Təhsil "əsərində tibbi məsələlərdən də bəhs edib. Demək olar ki, elmin bütün sahələrində əsərlər yazan Bəhmənyarın tibbə aid yazıları əsasən müəllimi İbn Sinanın kitablarına olan şərhlərdir. Amma alimin özü də təbib kimi xeyli orijinal ideyalar irəli sürüb, müxtəlif xəstəliklər üçün müxtəlif üsullar təklif edib.

**Əbdül Məcid Təbib** - XIII əsrdə yaşamış bu mütəfəkkir dövrünün böyük təbibi hesab olunurdu. Onun "Dərmanlar haqqında kitab" əsərində psixiatriya, nevrologiya ilə yanaşı, tibbin bir çox digər mövzuları da araşdırılır.

**Mahmud İbn İlyas** - Müsəlman dünyasında tanınan azərbaycanlı təbiblərdən biridir. Onun "Tibb elmini tam əhatə edən kitab" adlı əsəri Azərbaycanda təbabətə aid yazılan ilk fundamental kitabdır.

Təbib bu kitabda yüzlərlə dərman bitkiləri və başqa təbii müalicə üsulları haqqında məlumat verib. Kitabdakı orijinal müalicə üsulları İranda və başqa Şərq ölkələrində tətbiq olunub.

**Yusif Xoylu** - XIII-XIV əsrlərin ən tanınmış əczaçı alimlərindən idi. O, Cənubi Azərbaycanın Xoy şəhərində anadan olub, orada tibb üzrə təhsil alıb, sonralar isə Bağdada üz tutub, orada xəlifələrin saray həkimi vəzifəsinə qədər yüksəlib. 1311-ci ildə Yusif ibn İsmayıl bütün Şərqdə şöhrətlənən "Cameyi-Bağdadi" ("Bağdad toplusu") adlı əczaçılıq ensiklopediyasını yazıb. Kitabda bir neçə min dərman bitkisindən, mineral və tibdə istifadə olunan heyvanlardan bəhs olunur.

**Məhəmməd Şirvani** - Şirvandan Türkiyəyə köçərək orada saray həkimi olan təbibin ən məşhur əsəri, göz xəstəliklərinin müalicəsindən bəhs edən "Mürşid"dir. Bundan başqa o, qiymətli daşların şəfaverici gücündən xəbər verən "Muradın töhfəsi" adlı kitabını Osmanlı sultanı II Murada ithaf edib.

**Həkim Məhəmməd Əmin** - Gilanın Lahican məntəqəsində doğulub. Təhsil almaq üçün Təbrizə yollanıb və burada tibb elmini məşhur Həkim Cəbrayil və Həkim Məhəmməd Bəqərdən öyrənib. Müəyyən müddət Təbrizdə həkimlik edib. Onun təsis etdiyi müalicəxana o qədər çox xəstə cəlb edirdi ki, başqa müalicəxanalar, demək olar ki, boş qalmışdı. O dövrdə Təbriz Osmanlıların işğalı altında idi. Təbrizin Osmanlı valisi də Həkim Əminin təcrübə və biliklərinə valeh qalmışdı və tez-tez ona müraciət edirdi. Məhəmməd Əmin səyahət etməyi xoşlayırdı. Bir gün o, Ruma (Türkiyənin Avropa hissəsinə) səyahətə çıxır, qayıdan baş isə görür ki, Şah Abbasın qoşunları Təbrizi osmanlılardan alıb. Məhəmməd Əmin dərhal şahın hüzuruna yollanır ki, ona öz sədaqət və məhəbbətini bildirsin, lakin şahın soyuq münasibətindən təşvişə düşüb Gilana qaçır. Şah Abbasın qəzəbini başa düşmək çətin deyildi. Çox güman ki, Məhəmməd Əmin Osmanlı işğalçıları ilə əməkdaşlıqda günahkar bilinmişdi. Ona görə, Məhəmməd Əmin bir daha Təbrizə qayıtmır və birbaşa Hindistana, Əbdürrəhim Hani-Hanan adlı bir xeyriyyəçinin sarayına üz tutur. "Məktəbi-Xoşməndan" ("Ziyalıların məktəbi") adı ilə tanınan bu möhtəşəm sarayda Məhəmməd Əmin hörmətlə qarşılanır və bacarığı, tibbi səriştəsi və xoş xasiyyəti sayəsində böyük şöhrət qazanır.



### Azərbaycanda qeyri-adi müalicə üsulları

Orta əsrlər Azərbaycan təbabətindən danışarkən, bu dövrdə tətbiq olunan müalicə üsullarına da qısaca da olsa toxunaq. Hələ orta əsrlərdə Azərbaycanda tətbiq olunan müalicə üsulları hətta, günü bu gün Avropa həkimləri tərəfindən çox cüzi dəyişikliklər olunmaqla həyata keçirilir. Məsələn, su ilə müalicə metodu Azərbaycanda ta qədimdən var idi. Amma təbiblər sonradan bu müalicə üsulunu daha da inkişaf etdirdilər.

Orta əsrlərdə Azərbaycan təbibləri ılıq su ilə doldurulmuş vannaya üzüm yarpaqları əlavə edirdilər. Daha sonra isə 20 dəqiqə həmin vannada uzanmaqla dəridəki yaraların sağalmasına, dərinin yumşalmasına nail olurdular. Sonradan bu üsul saray hərəmxanalarında da tətbiq olundu. Hərəmxanadakı qadınlar dərilərinin gözəlləşməsi üçün üzüm yarpağı ilə dolu su vannasından yararlandılar.

Daha bir maraqlı müalicə üsulu isə noxud vannası olub. Kəskin bağırsaq ağrıları zamanı içində noxud qaynadılmış ılıq suları vannaya töküb 10-15 dəqiqə o suda uzanarmışlar. Bu üsul bağırsaq ağrılarını kəsərmiş.

Qoxu ilə müalicə üsulu da Azərbaycanda çox məşhur idi. Dövrün təbibləri xüsusən də meyvə-tərəvəzləri təzə və qurudulmuş halda qoxulamağı məsləhət görürdülər. Məsələn, qurudulmuş reyhanı ürək döyüntüləri zəif olan, nəfəsalma zamanı problemlər yaşayan insana tövsiyə edirdilər. Xəstə əsəbiləşən, gərgin olan zaman ağacdan dərilən təzə narı qoxuladardılar.

**Elmin NURİ**

# Səssiz kinomuzun son bədii filmləri

**1930-1932-ci illərdə "Azkino" adlandırılan "Azdövkino"nun 1931-ci ildə buraxdığı "Nikita İvanoviç və sosializm", "Qızıl kol" və "İlk komsomol dəstəsi" bədii lentləri süni süjetli təbliğat-təşviqat filmləri idi.**

**"Nikita İvanoviç və "sosializm" lentinin ssenarisi İ.Savçenko və L.Perelmanın "Rusiya məhv oldu" pyesinin motivləri əsasında "Yer üzündə insanlar" adı altında A.Makovskinin iştirakı ilə müəlliflər tərəfindən yazılmışdı, quruluşçu-rejissorlar İ.Savçenko və A.Makovski, operator L.Koretski quruluşçu-operatoru M.Fridolin, quruluşçu-rəssamı P.Beytner idi. C.Cabbarlı bu filmlə bağlı "Hara gedir "Azərkino"" məqaləsində yazırdı: "Hazırda Azərkino Rusiya... rus kəndlilərinin həyatından film çəkməyə cəhd göstərir. "Rusiya məhv oldu" filmində isə, hətta bir nəfər bakılının cəlb edilməsinə baxmayaraq, rahatlıq və asanlıq naminə türk həyatından da, kəndindən də imtina edilib. Film Nijeqorod həyatındandır... Bir illiyə və ya bir çəkilişə dəvət olunan qeyri-türk mütəxəssislər türk həyatını bilmədiklərinə görə, bu həyatdan film çəkə bilməzlər..."**

Filmdəki baş rolları İ.Savçenko, A.Makovski, A.Çuvelyov, V.Dançeva, K.Qromov, M.Jarov, Denisova, Quryanov və başqaları ifa edirdilər. Bu lent də "Lətif" filmində olduğu kimi, kollektivləşmənin ilk illərində qolçomaqlara qarşı mübarizədən bəhs edirdi. Sırf təbliğat-təşviqat xarakteri daşıyan filmdə milli xarakterlər, milli ruh, milli kolorit qəti yox idi, süni şəkildə Azərbaycan mühitinə köçürülmüş hadisələr qondarma xarakter daşıyırdı.

"İlk komsomol dəstəsi" ("Komsomolçuların ilk dəstəsi", "İlk komsomol buruğu" da adlanır) də özündə eyni nöqsanları ehtiva etdiyindən, uğursuzluğa düçar oldu. 1931-ci il martın 16-da ilk dəfə Tiflisdə nümayiş etdirilən bu lenti K.Vinoqradskayanın ssenarisi üzrə B.Medvedyev və İ.Frolov çəkmişdilər. İ.Frolov həm də qurulşçu operator idi. Filmin tərtibatını quruluşçu rəssam A.Qonçarski vermişdi. Azərbaycan neftçilərinin ilk dəstəsinə – komsomolçu-gənclərə həsr olunmuş bu lent onların "ayıq-sayıqlığından, xarici kəşfiyyatçıların əməllərinə qarşı mübarizə apardıqlarından" bəhs edir. Xarici kəşfiyyatın casusu Braynt komsomolçuların sıralarına soxulur, lakin onlar təxribatçının fəaliyyətini zərərsizləşdirməyə müvəffəq olurlar. O dövrdə aktual olan neft mövzusunda çəkilmiş, "Bakının fəhlə, gənclərini ayıq olmağa, neft sənayesinin inkişafı uğrunda yeni-yeni müvəffəqiyyətlər qazanmağa çağıran" filmdə L.Lomidze, V.Pokrovskaya ilə yanaşı, Bakı fəhlə-gənclər teatrının artisləri A.Quliyev (Məmməd), H.Seyidzadə (neftçi) L.Aristakesov, Y.Qudnin və A.Krasovski iştirak edirdilər. Nüsxəsi qalmasa da, o dövrdəki Bakının neft sənayesinə həsr edilmiş ilk ekran əsərlərindən biri olan bu lentin səviyyəsinə görə "Müxtəlif sahillərdə" (1926) detektiv filmindən fərqlənmədiyi bildirilir.

Film haqqında "Hara gedir "Azərkino"" məqaləsində böyük dramaturqumuz C.Cabbarlı belə qeyd edirdi: "Birinci komsomolçu" (lentin adlarından biri belə idi – N.Ə.) filmi üzrə "Azərkino"nun təşkil etdiyi çəkiliş qrupu yerli qüvvələrə etinasızlıq baxımından bütün rekordları vurub keçdi. Rejissor Moskvadandır. Özü də heç vaxt, heç yerdə, heç nə çəkməyib. Demək olar ki, o biriləri kimi, o da Azərbaycanda ilk sınaqdan keçir... Baş rejissor vəzifəsi isə Frolova həvalə edilmişdir. Frolov operatordur, heç vaxt rejissor işi ilə məşğul olmayıb... Ssenari üzərində əvvəlcə üç nəfərlik bir qrup, sonra iki nəfərlik başqa qrup işləyirdi və nəhayət, ənənəyə görə, ssenariçi Vinoqradskaya dəvət olunmuşdur. Ssenari üzərində belə əsaslı surətdə iş apardıqdan sonra "Birinci komsomolçu" filminin çəkilişinə başladılar. Üç ay yarım ərzində filmin 90 faizini çəkdilər və birdən dayandılar... Sən demə, ssenari üzərində üç qrup və hətta məşhur ssenariçinin işləməsinə baxmayaraq, onda bəzi yanlışlıqlar aşkar olunub. Birincisi, bu üç qrupdan heç birində bir nəfər də türkün olmaması belə bir nəticəyə gətirib çıxardı ki, ssenarini təsadüfənmi, ya qəsdənmi oxuyan elə ilk türk... türk qadınını ssenaridə nəzərdə tutulan şəkildə çəkməyi "qadağan etdi". Bu, birinci dəfə deyil. Bu, eyni bir prinsipial səhvin bəlkə, artıq onlarla dəfə təkrarıdır".

"Qızıl kol" ("Dağlara hücum", "Xandrilla") filmi qısametrajlı (5 hissə idi) olsa da, təbliğat-təşviqat xarakterinə görə deyil, milli kadrlardan istifadə olunduğu üçün diqqəti çəkir. Bu ekran əsərinin ssenari müəllifi və rejissoru B.Əsgərov rejissor assistenti A.Quliyev, rejisor köməkçisi Q.Salamzadə idi, əsas rolları A.Quliyev, R.Kazımov, (Süleyman) S.Ruhulla, İ.Novruzova, Badisəba, L.Səfərov və başqaları ifa edirdilər. Operatorlar İ.Tartakovski və İ.Manakovun lentə aldığı bu film də ictimai-siyasi, iqtisadi, mədəni və gündəlik həyatda təbliğat-təşviqat işinə xidmət edirdi. Filmin nüsxəsi saxlanmadığından və mövzusu haqqında əlimizdə məlumat olmadığından, onun yalnız pambıqçılığa həsr olunduğunu güman edə bilərik.

"Azkino"nun 1932-ci ildə ekranlara buraxdığı "Əlsizlər" ("Əlsiz adamlar" qısametrajlı (4 hissəli) lenti də təbliğat-təşviqat filmləri seriyasından idi və tədris müəssisələrinin texnikləşdirilməsindən bəhs edirdi. Filmin süjet xətti sxematik qurulmuşdu: orta məktəbi yenicə bitirmiş gənclər müstəqil həyata qədəm qoyanda, peşə vərdişlərinə kifayət qədər yiyələnə bilmirlər, ona görə də əlsiz kimi olurlar. Odur ki, onları peşəyə alışdırmaq üçün peşə vərdişi lazımdır. Filmi öz ssenarisi üzrə rejissor İ.Savçenko lentə almışdı, quruluşçu operator M.Fridolin, quruluşçu rejissor V.Aden idi.



Əsas rolları H.Seyidzadə, (fəhlə), A.Quliyev, (Şərif), A.Terequlova, S.Koretskaya Z.Seyidzadə, R.Seyidzadə ifa edirdilər. Təbii ki, mövzunun və süjetin özü ekran üçün yetərincə yaradıcılıq imkanları vermək iqtidarında olmadığından, bu filmdən də ətraflı söhbət açmaq çətindir.

1932-ci ildə məşhur satirik yazıçılar İ.İlf və İ.Petrovun əsəri üzrə çəkilmiş birhissəli "Direktiv bant" bədii filmi də çəkilmişdi. Filmi A.Quliyev güman ki, öz ssenarisi əsasında çəkmişdi. Komediya janrında olan bu ekran əsərinin quruluşçu operatorları Ə.İsmayılov və M.Mustafayev idi. Film saxlanmadığından, süjet xətti və ifaçılar haqqında danışmaq çətindir. Yeni həyat quruculuğunda qarşıya çıxan nöqsanları satira atəşinə tutan bu lent də təbliğat-təşviqat xarakteri daşıyırdı.

İndi Rusiya Dövlət Kino Fonduna çevrilmiş Ümumittifaq Dövlət Kino Fondunda "Azdövsənaye" trestinin 1934-cü ildə istehsal etdiyi iki qısametrajlı bədii film də saxlanılır. İkihissəli "İki yoldaş" lentinin ssenari müəllifi A.Yan, quruluşçu rejissorü A.Makovski, quruluşçu operatoru İ.Manakov, operator assistenti L.Koretski quruluşçu rəssamı isə rəssam G.Əliyevdir. İkihissəli "Dostlar" ("Muxtar") filmini isə A.Perelmanın ssenarisi üzrə rejissor A.Quliyev çəkmişdi, quruluşçu operatoru, İ.Manakov ikinci operatoru M.Mustafayev və G.Əliyev idi. Hər iki ekran əsərində aktyorlardan X.Əmirzadə, H.Rzayeva, Ə.Məlikov və başqaları çəkilmişdilər. O dövr üçün səciyyəvi olan bu filmlərə paralelizm metodu hakimdir, baş verən hadisələr iki yoldaşın, iki dostun xarakterini açır, xarici mühitin onların təbiətinə təsirini üzə çıxarır. "Dostlar" da uşaqların sosialist mülkiyyətinə münasibəti, "İki yoldaş"da isə düşərgəyə buraxılmayan, isti günləri şəhərdə keçirən məktəblərin həyatlarını təhlükəyə qoymalarından bəhs edilir.

1935-ci ildə rejissor M.Mikayılov "Altıncı hiss" adlı ekran əsərinə quruluş verdi. Sənətçinin ömür və yaradıcılıq yolunu araşdıran kino tədqiqatçısı N.Sadıxov dram janrında lentə alınan bu film haqqında heç bir məlumat verməsə də, dövri mətbuatda lentin çəkilişi barədə məlumat var. ""Lətif", "İsmət" şəkillərinin müəllifi, talantlı rejissor Mikayıl Mikayılovun çəkdiyi "Altıncı hiss" adlı kino filmi çəkilib qurtarmaq üzrədir. Bu filmdə rejissor türk işçisinin texnikaya sahib olması və onun düşüncəsində əmələ gələn yenidənqurulma işlərini göstərir. Bu şəkildə Əzizbəyov adına dramteatrosunun (indiki Azərbaycan Milli Dram Teatrının – N.Ə.) əməkdar aktyoru İsmayıl Hidayətzadə, (Ələsgər) Ələkbərov, BRT (Bakı Rus Dram Teatrı – N.Ə.) artisti (S.) Klimov, türk qızı Çimnaz Hüseynovadır. O, İzzət Orucovadan sonra baş rolda çəkilən ikinci türk qızıdır.

Digər adı "Mühəndis Heydər" olan bu filmdə Ələkbər Hüseynzadə (Hüseynov), M.Sənani də müxtəlif obrazları yaratmışdılar. Filmin ssenari müəllifləri Aleksey Kapler və İ.Tartakovski, rəssamı V.Aden, quruluşçu operatoru F.Novitski idi. Tammetrajlı ekran əsəri olan bu filmin nüsxəsi saxlanmadığından, haqqında fikir yürütmək mümkün deyil.

**Nəriman ƏBDÜLRƏHMANLI**

# unudulmuş dəyərlər

**Sözə, bədii mətnlərə tarixin bütün dönəmlərində ehtiyac olub. Söz – zamanın biləyindən yapışan, onun nəbzini yoxlayan bir təbib olub həmişə. Gərdişin əli hər yerdən üzüləndə, dünya qələmin gücünə, bədii sözə söykənib. Bunu zaman-zaman sınaqlardan keçən ədəbiyyatımız da təsdiqləyir. Təəssüf ki, yazılan gözəl əsərlərlə yanaşı, bu günün mənzərəsi fonunda yaşanan xaotik bir söz bumuna da şahid oluruq. Bu, əsl sözə qiymət verən oxucularda bir xəyal qırıqlığı yaradır. Ədəbi mühitdə yaşananlar, məsələn, yaşından, təcrübəsindən, istedadından asılı olmayaraq, romançılığa aludə olmağın bu gün bir dəb halını alması, nəticədə sözün urvatdan düşməsi ədəbiyyatsevərləri məyus edir. Belədə yazarlarımızın zamanın dolanbaclarından keçib gəlmiş əsərlərinə bir daha üz tutmağa dərin ehtiyac duyulur. Bu baxımdan, dəyərli ədəbi nümunələrdən örnəklər verməyi planlaşdırmışıq. Beləliklə, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məmməd Arazın şeirləri ilə missiyamızı davam etdiririk.**



## Gözünü sıx, hansı daşda su yansa, O daş altda Məmməd Araz yaşayır

### Məndən ötdü, qardaşıma dəydi...

***Bəxtiyar Vahabzadəyə***

*Ey daşlaşan, torpaqlaşan,*
*ulu babam!*
*Bu günümdən dünənimə uzaqlaşan*
*ulu babam!*
*Küləkləşən, dumanlaşan ruhumla sən*
*Ayağa dur, səninləyəm!*
*Səs getməyən,*
*əl yetməyən*
*Qədim tarix dərəsindən*
*Səs ver mənim səsimə sən: -*
*Sənə gələn, səndən ötən*
*Nəydi belə? -*
*Səndən ötüb qardaşına dəydi belə?*
*Bununlamı neçə dəfə*
*Ata-oğul, qardaş hissi haçalandı,*
*Bir şəhərin*
*Beş qardaşın xanlığına parçalandı?*
*O zamanmı bitdi bizim dilimizin*
*"sənin", "mənim" qabarı da?*
*O zamanmı bitdi bizim dilimizin*
*"haralısan" damarı da?..*
*Səninləyəm, ulu babam!*
*Bu məsəli kimdi yazan?*
*Hansı soysuz ata idi*
*Ataların imzasını*
*Çəkib, ona möhür basan?!*
*Adınızı dastanlardan oğrayaram.*
*Ruhunuzu qıyma-qıyma doğrayaram,*
*Qara Çoban,*
*Dəli Domrul.*

*Ey Xan Eyvaz,*
*Giziroğlu Mustafabəy,*
*Əgər ki, siz*
*Bu məsələ qol çəkdiniz!*
*Sonra, sonra hansınızsa*
*Xalqa gələn bir qəzadan*
*Öz başını yana əydi.*
*O qəza bir topa dönüb*
*Səttarxanın tifaqına*
*yaman dəydi.*
*Məndən ötdü!...*
*Məndən ötdü!..*
*Sevincə bax, qeyrətə bax!*
*Bunu yazan xilqətə bax!*
*Məndən ötdü!..*
*Qulağımdan getmir bu səs,*
*Zərbələri qardaşına,*
*Sirdaşına ötürən kəs*
*Elə bil ki, bax bu gecə*
*Qulağımın dibindəcə*
*Xətainin süqutuna*
*qəh-qəh çəkdi.*
*Sonra, sonra*
*Səhərcən başına yüz qədəh çəkdi.*
*O qəhqəhin dalğasından,*
*O məstliyin baş fırladan*
*havasından*
*qopan daşdı –*
*Azərbaycan torpağında*
*Araz boyda şırım açdı.*
*Məndən ötdü...*
*Bunu dedi Şəki xanı,*
*Bunu dedi Bakı xanı,*
*Bunu dedi İbrabim xan,*
*Fətəli xan, Kəlbəli xan...*
*Qəza ötsün məndən, - dedi,*
*Ötən kimi "mən-mən" dedi:*

*"Mən-mən" dedi bir ölkədə*
*nə qədər xan.*
*Onlar "mən-mən" deyən yerdə*
*Sən olmadın, Azərbaycan!*
*Səni səndən alıb belə*
*Yüz illərlə uyutdular.*
*Səni səndə ələdilər,*
*Səni səndə üyütdülər.*
*Dibək oldun öz duzunla,*
*öz daşınla.*
*Ögey oldun*
*doğma, əkiz qardaşınla –*
*Məndən ötdü deyənlərin qeyrətindən,*
*Namusunu yeyənlərin qeyrətindən!*
*Məndən ötdü...*
*Məndən ötdü!*
*Ey daşlaşan, torpaqlaşan,*
*ulu babam!*
*Bu günümdən dünənimə uzaqlaşan*
*ulu babam!*
*Ayağa dur!*
*Dəfn etdiyim məsəlinin*
*Baş daşına*
*Bir təəssüf xatirəsi yazıb, yondur:*
*Səndən ötən mənə dəydi,*
*Məndən ötən sənə dəydi.*
*Səndən, məndən ötən zərbə*
*Vətən, Vətən, sənə dəydi.*

1967

### Ayağa dur, Azərbaycan!

*Nə yatmısan, qoca vulkan, səninləyəm!*
*Ayağa dur, Azərbaycan, səninləyəm!*
*Səndən qeyri*
*biz hər şeyi bölə billik!*
*Səndən qeyri*
*biz hamımız ölə billik!*
*Bu, Şəhriyar harayıdı,*
*Bu, Bəxtiyar harayıdı!*
*Hanı sənin tufan yıxan,*
*Gurşad boğan yurda oğul oğulların!*
*Qara Çoban, Dəli Domrul oğulların.*
*Çək sinənə-qayaları yamaq elə,*
*Haqq yolunu ayağına dolaq elə,*
*Bayrağını Xəzər boyda bayraq elə,*
*Enməzliyə qalxmış olan bayrağını!*
*Azərbaycan, Azərbaycan,*
*Azərbaycan bayrağını!*
*Ayağa dur,*
*Azərbaycan!*
*Bunu bizə zaman deyir,*
*Məzarından baş qaldıran baban deyir!*
*Nər oğlu nər, səninləyəm!*
*Səninləyəm, silah tutan,*
*Külüng tutan, yaba tutan,*
*Kösöy tutan, nişanlı ər, səninləyəm!*
*Səninləyəm, qız atası,*
*Hanı nərən, hanı səsin!*
*Hanı andın!*
*Yoxsa sən də yatmışlara, batmışlara,*
*Qeyrətini satmışlara xırdalandın!!!*
*Gözünü sil, Vətən oğlu,*
*ayağa qalx!*
*Üfüqünə bir yaxşı bax.*
*Sərhəddinə bir yaxşı bax.*
*Sərhəddinin kəməndinə bir yaxşı bax!*
*Dur, içindən qorxunu boğ,*
*Ölümünlə, qalımını ayırd elə.*
*Dur, içindən qorxağı qov,*
*Dur, özünü Bozqurd elə!*
*Bir səsindən min səs dinər,*
*Neçə-neçə daşa dönmüş dinməz dinər!*
*Oddan bitər, qandan bitər əyilməzlər!*
*Mərd oğullar - mərdliyilə öyünməzlər!*
*Torpaq altda ölümlüyə gömülməzlər.*
*Varım, yoxum, səninləyəm,*
*Azım, çoxum, səninləyəm,*
*Şirin yuxum, səninləyəm.*
*Yıxın məni söz atından,*
*Atın məni tank altına.*
*Əzin məni xıncım-xıncım,*
*Kəsmir əgər söz qılıncım,*
*Didin məni didim-didim,*
*Atın məni tank altına.*
*Qundaqdakı bir körpəni xilas edim.*
*Neçə "səni", neçə "məni" xilas edim.*
*Səninləyəm, Sözü qəmli, özü dəmli*
*rəhbər adam!*
*1918-də vuruşurdu,*
*Danışmırdı rəncbər atan,*
*rəncbər atam!*
*Səninləyəm, haqq-ədalət, səninləyəm,*
*Milli qürur, milli qeyrət, səninləyəm!*
*Səpil quma, göyər yerdə, bit qayada,*
*Gizli nifrət, açıq nifrət, səninləyəm,*
*Oyat bizi, ey yaradan, səninləyəm!*
*Ya birmərrə yatırt bizi,*
*Ya birmərrə oyat bizi,*
*Ya yenidən yarat bizi,*
*Ey yaradan, səninləyəm,*
*Səninləyəm, yatmış vulkan, Səninləyəm!*
*Ayağa dur, Azərbaycan,*
*Səninləyəm!*

*19 mart, 1992*

### Azərbaycan - dünyam mənim

*Azərbaycan - qayalarda*
*bitən bir çiçək,*
*Azərbaycan - çiçəklərin içində qaya.*
*Mənim könlüm bu torpağı*
*vəsf eləyərək,*
*Azərbaycan dünyasından*
*baxar dünyaya.*
*Azərbaycan - mayası nur,*
*qayəsi nur ki...*
*Hər daşından alov dilli ox ola bilər.*
*"Azərbaycan!" - deyiləndə*
*ayağa dur ki,*
*Füzulinin ürəyinə toxuna bilər.*
*Oğulları Kür gəzdirər biləklərində,*
*Oğulların göz atəşi*
*Gözəl əridir.*
*Azərbaycan səhərinin bəbəklərində*
*Qütb ulduzu,*
*dan ulduzu gözəlləridir.*
*İllər olub - kürrələrdə dəmir olmuşuq,*
*Sərhədlərdə dayanmışıq*
*küləkdən ayıq.*
*Od gölündə,*
*buz çölündə gəmi olmuşuq,*
*Biz Bakının ilk səadət carçılarıyıq.*
*Min illərlə zülmətlərə yollar açıqdı,*
*Dalğalandı Sabirlərin*
*ümman dünyası,*
*Azərbaycan qatarı da yollara çıxdı*
*Dağlanda Qoca Şərqin*
*duman dünyası.*
*Azərbaycan - mayası nur,*
*qayəsi nur ki...*
*Hər daşından alov dilli ox ola bilər.*
*"Azərbaycan!" - deyiləndə*
*ayağa dur ki,*
*Ana yurdun ürəyinə toxuna bilər.*

*1970*

* * *

*Ana yurdum, hər daşına üz qoyum,*
*Hər dərəndə çaldığım saz yaşayır.*
*Kimi sənin çiynində,*
*sən kiminin...*
*Şöhrətini yaşadan az yaşayır.*
*Bu gileydən qəlbim yaman xallanır;*
*"Çox ünvanda qaçaq tərif yallanır".*
*Bir ağılın budağından sallanıb,*
*Neçə-neçə ağlı dayaz yaşayır.*
*Gülüm, bir də görüşünə yubansam,*
*Adımı tut, harda dağlar dumansa.*
*Gözünü sıx,*
*Hansı daşda su yansa,*
*O daş altda Məmməd Araz yaşayır.*

*1971*

### Ağarma, saçım, ağarma!

*Nə erkən sənə dən düşdü,*
*Niyə düşdü, nədən düşdü?*
*Beynimmi qüvvədən düşdü?*
*Ağarma, saçım, ağarma!*

*Arzu sonsuz, ömür yarı...*
*Artdı alnın qırışları,*
*Səndə insaf olsun barı*
*Ağarma, saçım, ağarma!*

*Məni qəmgin görsə əgər*
*Düşmən gülər, dost qəm yeyər,*
*Qızlar baxıb "dayı" deyər,*
*Ağarma, saçım, ağarma!*

*Daşdır qəlbin, daşdır canın,*
*Yoxdur, duyğun, yoxdur qanın.*
*Hələ gəncəm, sən vicdanın*
*Ağarma, saçım, ağarma!*

*Ömür keçir, yaman keçir,*
*Qəlbimdən qara qan keçir.*
*Daha gözəllər yan keçir,*
*Ağarma, saçım, ağarma!*

*Hələ səsim ucalmayıb,*
*El gücündən güc almayıb.*
*Hələ ürək qocalmayıb*
*Ağarma, saçım, ağarma!*

*İlham adlı şahpərim var,*
*Yol üstəyəm, səfərim var...*
*Yazılmamış əsərim var...*
*Ağarma, saçım, ağarma...*

### Böyüklər, uşaqlar...

*Böyüklər, böyüklər hörür çəpəri,*
*Uşaqlar, uşaqlar yarır çəpəri.*
*Böyüklər, böyüklər çəpər boyunca,*
*Qaratikan əkir, gicitkən əkir.*

*Uşaqlar, uşaqlar çəpər dibində,*
*Bənövşə axtarır, süsən axtarır.*
*Böyüklər, böyüklər - çəpər adlayan.*
*Qonşu kölgəsini əzməyə hazır.*

*Uşaqlar, uşaqlar biri-birinə,*
*Çəpər - deşiyindən pişik addadır.*
*Böyüklər, böyüklər - çəpərdə paya,*
*Uşaqlar, uşaqlar - çəpərdə qayçı...*

*Beləcə uşaqdı qonşu böyüklər,*
*Beləcə böyükdü qonşu uşaqlar.*
*Nə yaxşı yamanlıq öləzimməkdə,*
*Nə yaxşı, yaxşılıq yanmağındadır.*

*İnandım: hər uşaq bir od parçası!*
*İnandım: səngiməz bu od, bu ocaq!*
*Təbrizlə Naxçıvan arasındakı*
*Çəpəri yıxan da bunlar olacaq...*

### Vətən mənə oğul desə

*Buyruqlara sığışmayan inaddım,*
*Çox qanadlar yorub salan qanaddım.*
*Ulduzlara yumruq düyüb, daş atdım;*
*Nizamlara baş əyməzdi nizamım.*

*Qayaları haçalardı qüdrətim,*
*Buludları parçalardı qüdrətim*
*Şimşəkləri qıçalardı qüdrətim,*
*Yorulanda nur mizrablı ozanım.*

*O selablar seləliyim yalanmış,*
*Ötən günlər çalağanmış; çalanmış.*
*Bircə kövrək xatirələr qalanmış,*
*Onu da ki, ha çevirim, ha sanım...*

*Vətən mənə oğul desə nə dərdim,*
*Mamır olub qayasında bitərdim.*
*Bu torpaqsız harda, nə vaxt, nə dərdim*
*Xəzanımdır, xazanımdır, xəzanım.*

*Dünənimi döşdən asan deyiləm,*
*Dünənimə qəbir qazan deyiləm.*
*Ürəyimsiz kəlmə yazan deyiləm,*
*Nə qədər ki, öz əlimdi yazanım.*

# Qüsursuz qətl



**Alberto MORAVİA**
**(İtaliya)**

Bu hiss məndən güclü idi: tanış olduğum qızı hər dəfə Riqamontiyə təqdim edirdim, o da ovu həmişə əlimdən alırdı. Niyə belə edirdim? Ola bilsin, qadınların xoşuna gəldiyimi göstərmək həvəsindən, ya da istəmirdim dostumun barəsində ağlıma pis fikirlər gətirim. Di gəl ki, hər xəyanətindən sonra onu yenə əvvəlkitək özümə dost sayırdım. Abırına qısılıb özünü bir az ədəbli aparsaydı, bu cür davam etməyə, bəlkə, dözərdim, amma həddini aşan həyasızlığı ilə ağını çıxartmışdı. Axırda o qədər qudurdu ki, qıza gözümün qabağındaca girişir, görüşü yanımdaca təyin edirdi. Məlumdur ki, belə hallarda uduzan da, itirən də həmişə tərbiyəli adam olur. Sinyorinanın yanında mübahisə yaranmasın deyə, adətən, susmağa üstünlük verirdim, Riqamonti isə sırtıqlığına salıb öz məqsədinə nail olurdu. Bir-iki dəfə yüngülcə etirazımı bildimişdim, başqa neyləməliydim? İçimdə yanıb qovrulsam da, hisslərimi ifadə etməyi bacarmıram. Belə olanda bilirsiz Riqamonti mənə nə cavab verirdi?

- Sən özün günahkarsan, mənlik bir iş yoxdur. Bir halda ki, qız mənə üstünlük verib, meyili mənədir, deməli, mən onu daha yaxşı bişirə bilmişəm.

Burası doğru idi; eləcə də onun məndən qəşəng olması. Amma həqiqi dost heç vaxt dostun qadınına əl uzatmaz.

Qərəz, Riqamonti bu oyunu dörd-beş dəfə oynayandan sonra ondan elə zəhləm getdi ki, hətta birgə işlədiyimiz barda müştərilərə qulluq edərkən piştaxta arxasında yanaşı dayananda belə üzünə baxmaq istəmir, qəsdən böyrümü, yaxud arxamı çevirirdim ki, gözüm onu görməsin. İndi heç pisliklərini də yada salmırdım, yalnız özü haqqında, kimliyi, nəçiliyi, necə bir adam olması barədə düşünürdüm. Axırda hiss etdim ki, daha bu adama dözə bilmirəm. Mənim bu dar alından, bu xırda gözlərdən, bu donqarlı iri burundan, bu yekə sifətdən, üstündə ütük bığı olan bu ətli dodaqlardan, bir cüt uzun hörüklü dəbilqəvari qırxıq başdan, gicgahdan peysərəcən daranmış parıltılı qara saçlardan zəndeyi-zəhləm gedir; qəhvəqaynadanı fırlatmaqla gözə dürtdüyü tüklü qolları görən gözüm yoxdu. Amma ən zəhləm gedən enli pərəli donqar burnuydu. Tez-tez ürəyimdən keçirdi ki, qəfil geri çevrilib burnunun üstündən birini ilişdirim; elə ilişdirim ki, sümüyün xırçıltısı eşidilsin.

Ancaq bunlar hamısı xam xəyaldı: özüm elə sısqa, elə çəlimsiz idim ki, Riqamonti istəsəydi məni bircə barmağıyla yerə sərərdi.

Dostumu öldürmək fikrinə nə vaxt düşdüyümü söyləmək çətindir - ola bilsin, «Qüsursuz qətl» adlı Amerika filminə baxdığımız axşam. Düzdür, əvvəl onu gerçəkdən öldürmək fikrində deyildim, sadəcə, qətl səhnəsini xəyalımda canlandırır, bu işi necə görəcəyimi düşünürdüm. Axşamlar yuxuya getməzdən, səhərlər yataqdan qalxmazdan qabaq, eləcə də gündüzlər barda bekar qaldığım, Riqamonti isə öz boyalı başını aşağı sallayaraq stulda oturub piştaxta arxasında qəzet oxuduğu vaxtlar bu barədə düşünmək mənə ləzzət eləyirdi. Elə-belə düşünürdüm, əyləncə xatirinə. Ürəyimdə deyirdim ki, bax indi buzu qırdığımız həvəngdəstəni götürüb təpəsinə çırpacam.

Qısası, bütün gün sevgilisinin intizarıyla yaşayan, görüşərkən ona nə deyəcəyini düşünən adama oxşayırdım, yalnız bir fərqlə ki, mənimçün bu sevgili – Riqamonti idi və başqalarının xəyali öpüşdən, xəyali sığaldan aldığı həzzi mən onun ölümü haqqındakı düşüncələrimdən alırdım. Hamısı da sırf əyləncə xatirinəydi. Bu məni, həqiqətən, əyləndirirdi, çünki planı özümçün bütün xırdalıqlarınacan düşünmüşdüm. Ancaq bütün detallar işlənib hazırlananda, düşündüklərimi həyata keçirməyə məndə dəhşətli bir həvəs yarandı; bu həvəs elə güclü idi ki, ziddinə gedə bilmədim və axırda sözdən işə keçməyə qərar verdim. Bəlkə də, qərar-filan deyildi, sadəcə, bunların hamısını xam xəyal kimi düşünərək hərəkətə başladım.

Beləliklə, bir fincan qəhvə içdiyimiz masa arxasında ona dedim ki, guya qəşəng bir qızla tanış olmuşam. Amma bu dəfə söhbət mənim xoşuma gələn, sonra onun əlimdən aldığı qızlardan biri barəsində getmirdi, yox, mən ona məhz Riqamontini xoşlayan qızdan danışırdım. Bu söhbəti həftə boyu bir neçə dəfə təkrarladım, hər dəfə də söhbətə çılğın sevgi ştrixləri artırıb, özümü elə göstərirdim ki, guya hətta qısqanıram.

Əvvəlcə Riqamonti buna laqeyd yanaşdı: «Bir halda ki, dərdimdən ölür, onda qoy bara gəlsin... mən onu qəhvəyə qonaq edərəm».

Amma sonra inadından əl çəkib, yavaş-yavaş yumşalmağa başladı. Hərdən guya zarafat edirdi, amma bilirdim ki, məndən söz qopartmaq istəyir.

- O qız vardı ha... de görüm, məni hələ də sevir?

- Sevir də sözdür? Dərdindən divanədir.

- Daha nə deyir?

- Deyir çox xoşuna gəlirsən.

- Nəyimdən xoşu gəlir ki?

- Hər şeyindən: burnundan, saçından, gözlərindən, dodaqlarından, ən çox da qəhvəqaynadanla necə ustalıqla davranmağından.

Qısası, sözlərimdən belə çıxırdı ki, təsəvvürümün məhsulu olan bu xəyali qızın xoşladıqları özümün zəhləm gedən şeylərdən ibarətdi; mən elə Riqamontini məhz bunların ucbatından öldürməyə hazır idim. O isə, ədabaz-ədabaz gülümsəyib, az qaldı lovğalıqdan cırılsın, çünki özü haqqında çox yüksək fikirdə idi. Aydın görünürdü ki, gözəlçə o boş beynindən çıxmır, fikri-zikri daim onun yanındadır və yalnız yalançı məğrurluq mane olur ki, bunu məndən xahiş eləsin. Axırda o sanki peşman olmuş kimi, təəssüflə dedi:

- Qulaq as, ya məni o qızla tanış et, ya da bu barədə daha heç nə danışma.

Mən elə bunu gözləyirdim, dərhal sabaha görüş təyin elədim.

Planım sadə idi. Biz işi saat onda qurtarırdıq, gəlir-çıxarı hesablayan sahib isə barda saat on birin yarısınacan qalırdı. Deməli, Riqamontini Viterbo dəmiryol xəttinin böyründəki qum təpəsinə aparıram, deyirəm ki, qız burda onun görüşünə gələcək. Qatar saat on birə on beş dəqiqə işləmiş keçir, mən də qatarın səs-küyündən istifadə edib, Vittroiya meydanındakı mağazadan təzəlikcə aldığım «Beretta» tapançasından ona atəş açıram. Saat on birə iyirmi dəqiqə işləmiş qəsdən unutduğum bağlamanın dalınca bara qayıdıram, bu vaxt əlbəttə ki, sahib məni görür. Ən uzağı saat on birin yarısında kirayə qaldığım evin qapıçı otağında, portyedən bir gecəliyə götürdüyüm çarpayıya uzanıram, vəssalam. Qatarla bağlı olan və vaxtın hesablanmasına aid yerlərin bir qismini filmdən götürmüşdüm. Plan baş tutmaya da bilərdi, yəni cinayətin baş verdiyi yerdə təsadüfən kimsə məni görərdi və belədə ləzzəti ən azı ondan alacaqdım ki, hər necə olsa, içimdəki yanğını söndürmüşəm; bunun xatirinə lap sürgünə də hazır idim.

Ertəsi gün şənbəyə düşdüyündən xeyli işləməli olduq, amma bu lap yerinə düşdü, çünki Riqamonti qız barədə nəsə danışmağa macal tapmadı. Saat onda həmişəkitək kətan gödəkçələrimizi əynimizdən çıxarıb yerinə asdıq, sahiblə sağollaşıb, yarıyacan salınmış dəmir pərdənin altından küçəyə çıxdıq.

Bizim bar Akua Açetozaya aparan xiyabandadır; burdan Viterbo dəmiryoluna əl uzatsan çatar. Qaranlıq parkda heç kəs gözə dəymirdi, axırıncı cütlüklər Rimembrans parkındakı yamacdan aşağı enmişdi. Aprel ayı idi, havalar isinmişdi, Ay hələ görünməsə də, səma yava-yavaş işıqlanırdı.

Xiyabanla getdiyimiz yolda Riqamontinin kefi kökəlmişdi, tez-tez ərklə çiynimə vururdu, mənsə idman gödəkçəmin qoltuq cibindəki tapınçanın dəstəyini sıxa-sıxa sanki keyimişdim. Yol ayrıcında ot basmış cığıra keçib dəmiryol xətti boyunca addımladıq. Qum təpəsinin kölgəsi düşən sahə daha qaranlıq idi – burasını da nəzərə almışdım. Riqamonti irəlidə, mən də arxasınca gedirdim. Fənərin yaxınlığına çatanda ayaq saxlayıb dedim:

- Qız xahiş edib ki, onu burda gözləyəsən, indicə gələcək.

Riqamonti də dayandı, cibindən siqaret çıxarıb, alışdırdı.

- Hə, - dedi, - ofisiant kimi heç nəyə yaramasan da, aradüzəldən kimi tayın-bərabərin yoxdur.

Qərəz, öz işindəydi: yenə məni ələ salıb, alçaltmaqda davam edirdi.

Heç kəsin görmədiyi adamsız yerdə durmuşduq, ay duman pərdəsinə bürünmüş düzənliyi işıqlandırır, öz şöləsini boz kolluğa, zibil topasının üstünə, ayağımızın altında qıvrılan Tibrin gümüşü sularına səpələyirdi.

Məni əsməcə tutmuşdu, sanki bu iliq havada soyuq dumandan donurdum.

- Nə fərqi var: bir dəqiqə tez, ya bir dəqiqə gec… Onun iş yeri bura yaxındır, yəqin, sahiblərin getməsini gözləyir.

Bu sözləri Riqamonti üçün deyil, daha çox özümü sakitləşdirmək xatirinə dedim. Amma elə bu vaxt Riqamonti həvəslə dilləndi:

- Odur ey, gəlir...

Dönüb geri baxanda cığırla bizə tərəf addımlayan tutqun qadın fiquru gördüm.

Sonradan öyrənəcəkdim ki, adətən bura müştəri tapmaq ümidilə məlum qadınlar gəlir. Onda isə bunu bilmirdim və inanmağa hazır idim ki, qız xəyalımın məhsulu deyil, həqiqətən, mövcuddur. Üstəlik də, bu vaxt özündənrazı Riqamonti tam arxayınlıqla qadının üstünə yeridi, mən də onun dalınca. Daha bir neçə addım və qadın qaranlıqdan fənərin işıqlandırdığı sahəyə çıxdı. Baxanda az qala diksindim: yaşı altmışdan az olmazdı. Əzabkeş gözləri qara boyanın, sifəti ağ pudranın içində itib-batmışdı; qıpqırmızı dodaqları, pırpız saçları vardı, boynuna qara lent sarımışdı. Adətən belələri qaranlıq künc-bucaq axtarır ki, sir-sifəti aydın görünməsin.

- Sinyorina bizi gözləyir?

Riqamonti hələ qadını düzəmə̈lli gözdən keçirməmiş özünə xas sırtıqlıqla soruşdu. Heç qadın da sırtıqlıqda ondan geri qalmadı.

- Əlbəttə!

Riqamonti mala müştəri gözüylə diqqət yetirdi və yanıldığını anlayan kimi bir addım dala çəkilib tərəddüdlə:

- Bağışlayın, - dedi, - bu axşam mən bacarmaram… amma dostum burdadır...

Tez də kənara adlayıb, qum təpəsinin arxasında yoxa çıxdı.

Başa düşdüm ki, Riqamonti bu qədər qəşəng qızlardan sonra onu belə bir əcaiblə tanış etməyimi hayıf çıxmaq kimi anlayıb. Eyni zamanda onu da başa düşdüm ki, qüsursuz qətl planı baş tutmadı.

- Bu qəşəng kürəndə çəkməyə bir şey tapılmaz ki?

Qadın karnaval maskasına bənzəyən saxta təbəssümlə danışır, mənsə dinməzcə durub bu zavallı məxluqa baxırdım. Birdən qadına da, özümə də, hətta Riqamontiyə də yazığım gəldi. Az əvvəl içimdə sonsuz nifrət vardı, indi isə o nifrət harasa yoxa çıxmışdı. Gözlərim yaşla dolmuşdu; acı-acı düşünürdüm ki, məhz bu qadının sayəsində mən qatilə çevrilmədim.

- Çəkməyə siqaretim yoxdur, - dedim, - amma bax bunu götür; satsan azından min lirə qabaqsan.

Bunu deyib tapançanı zorla qadının ovcuna basdım. Sonra enişdən aşağı tullanıb xiyabana cumdum. Bu vaxt Viterboya gedən qatar qırmızı qığılcımlarını qaranlığa səpə-səpə ötüb-keçir, vaqonların pəncərəsindən gur işıq gəlirdi. Dayanıb qatarın uzaqlaşmasına baxdım, sonra təkərlərin öləziyən səsinə qulaq asıb evə qayıtdım.

Ertəsi gün barda Riqamonti mənə dedi:

- Bilirsən, bunun arxasında nəsə gizləndiyini hiss edirdim… amma dəxli yoxdur… hər halda, məni yaxşı doladın.

Onu diqqətlə gözdən keçirdim, hiss etdim ki, artıq nifrətim sovuşub. Halbuki elə həminki Riqamonti idi: həmin alın, həmin burun, həmin gözlər, həmin saçlar, həmin tüklü qollar. İçimdə elə bir yüngüllük hiss etdim ki, sanki bayırdakı aprel küləyi məni də büsbütün təzələmişdi.

Riqamonti mənə iki fincan qəhvə verdi ki, barın önündəki güntutan masanın arxasında oturmuş müştərilərə aparım. Fincanları ondan alarkən yavaşdan dedim:

- Axşam görüşəkmi? Mən Ameliyanı dəvət etmişəm.

O, heç bir qərəz hiss olunmayan səslə sakitcə cavab verdi:

- Təəssüf ki, bu axşam bacarmaram.

Fincanları götürüb aralananda içimdə peşmançılığa bənzər bir hiss baş qaldırdı: təəssüfləndim ki, o bu axşam indiyəcən əlimdən aldığı bütün başqa qızlar kimi, Ameliyanı əlimdən almağa gəlməyəcək.

**Tərcümə etdi:**
**Mahir N. QARAYEV**



**Bu səhifəni uşaqlar, yeniyetmələr üçün hazırlamışıq. Amma bu, heç də o anlama gəlməsin ki, səhifəmizi oxuyarkən böyüklər nəsə öyrənməyəcək. Mütləq öyrənəcək. Çünki elm öyrənmək, savad almaq insanın əbədi, həmişəcavan arzularındandır. Bəşəriyyət zaman-zaman adamları iki yerə bölüb: savadlılara və bisavadlara. Bütün sivilizasiyalar ona görə sivilizasiya olub ki, içindəki savadlı kəsim, düşünən insanlar artıb, fərqli bir mədəniyyət yarada bilib.**

**Müasir dövrdə elmə, biliyə can atmaq daha vacibdir, çünki dünənə kimi qarşımızda bir sirr olaraq qalan çox mətləblər artıq çözülə-çözülə gedir, bildiklərimiz artır, bilmədiklərimiz azalır. Amma nə qədər öyrənsək də, bilmədiklərimiz bildiklərimizdən qat-qat çox olaraq qalacaq.**

**Səhifəmizi müntəzəm izləsəniz, minlərlə mürəkkəb sualın sadə cavabını tapacaqsınız. Bu mətləblərin əksəriyyəti ilə orta məktəbdə rastlaşmışıq, amma, təəssüf ki, dərsliklərimizin, nədənsə, həmişə qəliz olan elmi dili ucbatından çox şey əxz edə bilməmişik.**

**Biz heç də o iddiada deyilik ki, "Hər suala bir cavab" rubrikamızı izləyə-izləyə savadlanacaq, alim olacaqsınız. Məqsəd uşaqlarımızın dünyagörüşünü genişləndirmək, onları həmişə diqqət mərkəzində olan maraqlı həmsöhbətə çevirməkdir.**

**İlqar ƏLFİ**



# Hər suala

## İlk universitet harda və nə vaxt yaranıb?

Orta əsrlərdə universitet adını ümumi maraqların qorunması naminə toplanan istənilən birliyə verirdilər. Ona görə də ilk təhsil universitetləri sadəcə olaraq, müəllimlərin və tələbələrin müdafiəsi üçün təşkil olunan birliklər demək idi. Bu birliklərin daimi binaları yox idi. Müəllimlər və tələbələr hansısa zalı, yaxud başqa bir tikilini kirayəyə götürürdülər.

Zaman keçdikcə bu birliklər də böyüyürdü, onlar üçün binalar tikilirdi. Universitetlər artıq müəyyən hüquq və güzəştlər qazanmışdılar və daimi fəaliyyət göstərirdilər. İlk belə universitet İtaliyanın Salerno şəhərində yarandı. Təxminən, IX əsrdən etibarən o, tibbi təhsil müəssisəsi kimi geniş şöhrət qazandı. Bu müəssisə 1231-ci ildə rəsmən universitet kimi tanındı.

XI əsrin axırlarında İtaliyanın Bolonya şəhərində çoxsahəli universitet fəaliyyət göstərməyə başladı. Burda hüquq, tibb, incəsənət və teologiyanı öyrənirdilər. Orta əsrlərin ən məşhur universiteti rəsmən XII əsrin ikinci yarısında təsis olunmuş Paris universiteti idi. Bu universitet sonralar Avropada yaranan bütün universitetlər üçün bir nümunə kimi tanındı. İngiltərənin iki ən qədim universiteti də Paris universiteti nümunəsində yaradıldı.

Oksford və Kembric rəsmən XIII əsrdə tanınmışdı. Biz bilirik ki, universitet bir çox kolleclərdən, yaxud fakültələrdən ibarət olur ki, bu da həmin təhsil müəssisəsində müxtəlif ixtisaslarda mütəxəssis yetişdirmək imkanı verir. Bir çox təhsil müəssisələri əvvəlcə kollec şəklində fəaliyyətə başlayaraq, sonradan universitetə çevrilib. Birləşmiş Ştatlarda ilk kollec Harvard olub. Bu təhsil müəssisəsi Massaçusets ştatının Kembric şəhərində 1636-cı ildə yaradılmışdı, bu gün isə artıq böyük bir universitetdir.

## Riyaziyyat (matematika) necə yaranıb?

Riyaziyyata (arifmetika) rəqəmlər haqda elm də demək olar. Bu sözün özü, yəni yunan dilində "arifmos" - "rəqəmlər" deməkdir. "Matematika" sözü də yunan dilində "bilgi" mənasında işlənib.

Əvvəllər adamlar öz inəklərini, qoyunlarını əl barmaqlarıyla sayırdılar. Sonralar ağac üzərində qoyduqları çapıqlarla saymağı öyrəndilər. Növbəti addım isə elə say sistemi oldu ki, onun hər rəqəmini işarələr vasitəsiylə yazmaq mümkün idi. Qədim yunanlar bu məqsədlə əlifbanın hərflərindən istifadə edirdilər. Romalılar isə daha uzağa getdilər. Onlar artıq hərfləri ataraq, bütün rəqəmləri cəmi yeddi hərflə ifadə etməyə başladılar. Bu sistem yazı üçün tətbiq olunurdu. Hesablamada isə "abak" adlanan xüsusi lövhədən istifadə olunurdu.

Ərəblər hindlilərin qəbul etdiyi əsaslarda rəqəm sistemi yaratdılar ki, biz indiyədək ondan istifadə edirik. Mərtəbələrin göstərilməsi üçün onlar ilk dəfə sıfır rəqəmini tətbiq etdilər ki, bu da saymağı son dərəcə sadələşdirdi. Diqqət yetirin ki, məhz "sıfır" sözündən də dünya dillərində rəqəm anlamında işlənən "sifra" sözü yarandı. Ərəb say sistemindən istifadəni tövsiyə edən ilk riyaziyyat kitabı naməlum italyan alimi tərəfindən 1202-ci ildə qələmə alınıb.

Çap üsulu ilə hazırlanmış ilk riyaziyyat dərsliyi latın dilində yazılmış və İtaliyada 1478-ci ildə işıq üzü görmüşdü. Digər dərsliklər isə 1484-1496-cı illər arasında çıxmışdı. Onlarda söhbət toplama, çıxma və vurmadan gedirdi. Bəzi latın məktəblərində riyaziyyatı yalnız təhsilin beşinci, altıncı ilində öyrədirdilər və buna həftədə bir saat ayırırdılar.

Yadda saxlamaq lazımdır ki, riyaziyyat üzrə bu qədim kitablar müasir metodların müəyyən bir hissəsini özündə əks etdirirdi və biz buna görə hind və ərəb alimlərini minnətdarlıqla xatırlamalıyıq.

## Məktəblər yaratmaq insanların nəyinə lazım idi?

İnsanlar qədim zamanlardan qruplar şəklində yaşayırlar. Hər qrup, nəsil birlikdə qalmağa, hətta ayrı-ayrı nümayəndələrinin ölməsindən sonra belə, bu birliyi qorumağa çalışırdı. Nəsli, onun dəyərlərini qorumaq üçün yaşlılar uşaqlara bildiklərinin hamısını öyrətməli idilər ki, onlar da gələcəkdə öz problemlərinin öhdəsindən gələ bilsinlər. Gənclər isə öyrənməliydilər ki, ənənələri, bilikləri və qrup şəklində qazanılmış təcrübəni saxlaya bilsinlər. Beləliklə, "təhsil" ideyası məktəblərin özündən xeyli qədimdir. Lakin yazının kəşfindən sonra məktəblərin yaranması artıq zərurətə çevrildi. Hərfləri mənimsəmək üçün xüsusi təhsil lazım idi. Yazının mövcudluğu isə biliklərin əvvəllər olmayan bir şəkildə effektiv ötürülməsini təmin edirdi.

Ailə belə təhsili təmin edə bilməzdi. Ona görə də bununla məşğul olan xüsusi müəssisə lazım idi. Məktəb də belə bir müəssisə olaraq yarandı. İlk məktəbin harda və nə vaxt yarandığını kimsə bilmir. Bizə bəlli olan bircə budur ki, 5-6 min il qabaq artıq Misirdə, Çində, bəlkə, hələ başqa ölkələrdə də məktəblər var idi. Lakin yalnız XVIII əsrdə təhsilin insanın və cəmiyyətin həyatında necə mühüm rol oynaya biləcəyi tam bəlli oldu. Və yalnız 100 il əvvəl oxumaq hər bir uşağın təməl hüquqlarından sayılmağa başladı.

## Andlılar məhkəməsi necə yarandı?

Bizim üçün andlılar məhkəməsi tələb etmək insanın ən təbii və müqəddəs hüquqlarından biridir. Lakin insanın bu haqqının tanınmasınadək çox zaman lazım oldu. 1066-cı ildə normandlar İngiltərəni işğal edəndə, məxsusi andlılar zümrəsi yaratdılar. Onların vəzifəsi faktlardan şəxsən xəbərdar olmalarına əsaslanaraq, məhkəmə işlərini həll etmək idi. Belə üsul on ikinci yüzillikdə II Henrixin hakimiyyəti dövrünədək qüvvədə oldu, kral Henrix isə bu qaydalara böyük dəyişikliklər etdi.

Aydın Yol
N 29(88) 26.08.2016


Qərarlardan biri bu oldu ki, andlılar xidməti vəzifələrini yalnız məhkəmədə çıxış edən şahidlərin ifadələrinə əsaslanaraq yerinə yetirməliydilər. Bu, təbii ki, müasir andlılar məhkəməsinin də əsas fəaliyyət prinsipidir. On iki nəfərdən ibarət andlılar məhkəməsi şahid ifadələrini, vəkillərin arqumentlərini və hakimin tapşırıqlarını diqqətlə dinləyir və sonra öz qərarlarını vermək üçün başqa otağa keçirlər. Görünür, andlıların məhz on iki nəfərdən ibarət olmasının konkret əsası yoxdur. Sadəcə olaraq, 1166-cı ildə II Henrix qərarını belə vermişdi və həmin zamandan etibarən bu, dəyişməz qalır.

Andlılar məhkəməsi yarananadək məhkəmə prosesləri müxtəlif üsullarla aparılırdı. Birinci üsul “zamin durmaq” idi. Yəni müttəhim məhkəməyə bir neçə qonşusunu gətirir və onlar da and içirdilər ki, müttəhim günahkar deyil. İkinci üsul “Tanrı məhkəməsi” adlanırdı. Müttəhim çoxlu işgəncələrə məruz qalırdı. O, əlini qaynar yağın içinə salır, yaxud əlinə közərmiş dəmir götürürdü. Əgər o işgəncəyə dözürdüsə, onu günahsız elan edirdilər. Üçüncü üsul “Məhkəmə qarşılaşması” adlanırdı. İnsan öz günahsızlığını isbat etmək üçün düşməni ilə döyüşməli idi. Əgər qələbə çalırdısa, onu günahsız elan edirdilər.

## Qırmızı Xaç Cəmiyyəti nə vaxtdan fəaliyyətə başlayıb?

1859-cu ilin isti bir iyun günü İtaliyada, Solferino yaxınlığındakı döyüşdən sonra meydanda on beş min ölü və ağır yaralı qaldı. Həkimlər az idi və bir çox yaralılar həkim yardımına macal tapmamış öldülər. Həmin gün döyüş meydanından keçən isveçrəli bir gənc – Hentix Dünant gördüyü ağır mənzərədən, qırğınların miqyasından, yaralıların ah-naləsindən sarsıldı. O, yaxınlıqdakı italyan kəndindən qadın könüllülər topladı. Onun rəhbərliyi altında bu qadınlar yaralılara yardım göstərirdilər.

Henrix Dünant şahidi olduğu dəhşətli səhnələr haqda bir məqalə yazdı. Məqalənin məğzi bu idi ki, əgər milli mənsubiyyətindən asılı olmayaraq bütün yaralıların qayğısını çəkmək üçün bir təşkilat yaransaydı, ölümlərin sayı qat-qat az olardı. Dünantın humanist səyləri nəticəsində on dörd millət Qırmızı Xaç Cəmiyyətinin yaradılması barədə müqavilə imzaladı. Müqavilənin imzalanma mərasimi 1864-cü ildə, Cenevrə konfransında baş tutdu və 1906-cı ildə həmin sənədə bəzi düzəlişlər edildi.

Sənədə əsasən, müharibə zamanı cəmiyyətin əzab-əziyyətini azaltmaq üçün müxtəlif ölkələrdə tədbirlərin keçirilməsi nəzərdə tutulurdu. Qırmızı Xaçın emblemi kimi İsveçrə bayrağının rəng sırasının tərsi əsasında yaranan bir nişan qəbul olundu.

Bu gün müharibə, yaxud milli fəlakət baş verərsə, bir çox millətlərdən olan insanların qəlbi bəşəriyyətə xidmət naminə həmin o bayrağın altında birləşir. İstənilən müharibədə bu mərhəmət bayrağına həm dostlar, həm də düşmənlər hörmət göstərirlər.

Qırmızı Xaçın Britaniya şöbəsinin əsası 1908-ci ildə qoyulub. Britaniya silahlı qüvvələrinin özünün tibbi xidməti olsa da, müharibə zamanı Qırmızı Xaç belə qurumlara yardım da göstərir.

Rusiyada Qırmızı Xaç Cəmiyyəti 1918-ci ildə yaradıldı və 1923-cü ildə ölkə ərazisindəki müsəlman əhali nəzərdə tutularaq, cəmiyyətin adını dəyişdilər. Həmin andan etibarən təşkilatın adı “Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətlərinin İttifaqı” oldu.

## Din necə yaranıb?

Dünyanın əsas dinləri induizm, buddizm, konfutsianlıq, taoizm, sintoizm, zərdüştilik, islam, iudaizm və xristianlıqdır. İnduizm Hindistanda, təxminən 3000 il bundan qabaq yaranıb. Bu dinin yaradıcıları belə hesab edirdilər ki, ilk böyük Allah olan Brama bütün həyat formalarının və çoxlu kiçik allahların yaradıcısıdır. Budda isə təxminən 3000 il əvvəl yaşayan böyük dini müəllim idi. Buddizm özünün ilkin formasında hansısa Allaha, yaxud allahlara bağlı deyildi. Buddizm öyrədirdi ki, insanlar bütün arzularından xilas olmaqla şərə qalib gələ bilər, rahatlıq tapar.

Buddizmin müxtəlif təriqət və istiqamətləri var.

Konfutsianlıq isə eramızdan əvvəl VI əsrdə yaşayan Konfutsi adlı bir filosofun təlimidir və insanın öz yaxınları ilə düzgün davranışı problemləri ilə bağlıdır.

Taoizm eramızdan qabaq VI əsrdə yazılmış, müəllifi Lao Şe olan kiçik bir kitabdan yaranıb. Bu inanc öz davamçılarından təbii həyat tərzinə sadiq qalmağı tələb edirdi.

Sintoizm isə yaponların ibtidai dinidir. Onun əsasında daha çox çinlilərin yaratdığı müxtəlif təlimlər durur.

Zərdüştilik Zaratustra, Zaroastra, yaxud Zərdüşt adlanan İran mənşəli, bəzi mənbələrdə azərbaycanlı kimi göstərilən peyğəmbərin təlimindən yaranıb. Zərdüşt eramızdan əvvəl VII əsrdə yaşayıb.

İslam eramızın VI əsrində ərəb əsilli Məhəmməd Peyğəmbərin təlimləri əsasında formalaşıb.

İudaizm qədim yəhudilərin vətəni olan Fələstində yaranıb və yəhudi xalqı tərəfindən ən müqəddəs din sayılıb.

Xristianlıq isə eramızdan qabaq 8-4-cü illərdə, Fələstində anadan olmuş İsa Məsihin təlimləri əsasında yaranıb.

## İlk rahiblər kim idi?

Rahiblik dinə həsr olunmuş həyat tərzi keçirməkdir. Kişi monastırı dini and içmiş kişilərin yaşadığı yerdir. Bu kişilər bir qayda olaraq, rahib olur. Amma monastırlarda ruhanilər də yaşaya bilər, hansısa dini qardaşlığın üzvləri də. Qadın monastırı isə dini and içmiş qadınların yaşadığı yerdir. Bu qadınlara rahibə deyilir.

Rahiblik hələ xristianlıqdan əvvəl də geniş yayılmışdı. Yəhudilər müxtəlif icmalarda birləşərək, öz təsərrüfatlarını idarə edirdilər. Xristian rahibliyinin əsası isə bizim eranın üçüncü əsrində Misirdə qoyuldu. Kişilərdən ibarət bir qrup ibadət etmək üçün tərki-dünya olub xəlvətə çəkildi. Qadınlardan ibarət belə qruplar da çox qədim zamanlardan mövcuddur. Hətta bəziləri bu fikirdədir ki, qadın monastırları kişilərinkindən də əvvəl yaranıb. Xristianlığın tarixi boyu rahiblər ordeni yaranan kimi onun tərkibində qadın cəmiyyətləri də yaranırdı.

Qadın dini icmalarının əksəriyyəti Müqəddəs Avqustin və Müqəddəs Fransiskin nizamnamələrinə əsasən fəaliyyət göstərir. Rahibələr də rahiblər kimi and içirlər. Onlar qadın monastırlarında yaşayırlar və hər belə monastırın özünün geyim forması olur.

XVII yüzilliyədək rahibələr adətən monastırda qalır, həyatlarını sırf ibadətlə keçirirdilər. Lakin o vaxtdan etibarən bir çox rahibə cəmiyyətləri məktəblərdə, xəstəxanalarda, yetimlər və qocalar evində fəaliyyət göstərməyə başladılar.

# bir cavab



Aydın Yol
N 29(88) 26.08.2016



# Markesin şəkli əks olunan əsginaslar

**Kolumbiya Milli Bankı üzərində məşhur yazıçı Qabriel Qarsia Markesin şəkli əks olunan 50000 min peso nominallı əsginaslar çıxarıb.**

28,3209 manata bərabər olan 50000 peso əsginasların hər iki tərəfində yazıçının şəkli əks olunub. Əsginasın bir tərəfində Markesin "Yüz il tənhalığı" romanının motivlərinə uyğun portreti əks olunub. Əsginaslar açıq-qırmızı tonlardadır.



# Rouling kitabına çəkdiyi rəsmlərini təqdim etdi

**Şöhrətinə və kitablarının satış rekorduna görə az qala Britaniyada Şekspiri üstələyən yazıçı Coan Roulinq Harri Potter silsiləsinə çəkdiyi rəsmlərini sosial şəbəkədə paylaşıb. Yazıçı bu rəsimləri 90-cı illərdə, hələ birinci kitab nəşr edilməzdən öncə ərsəyə gətirib. Rəsmlər povestin personajlarının ekranlaşdırılması məqsədiylə çəkilib. Yazıçı əsas personajların təsvirini yaradarkən, onların emosiyalarını da məharətlə ifadə edə bilib. Ağ-qara rəsmlərdə əsərin baş qəhrəmanları, o cümlədən saqanın ən ziddiyyətli personajı Severus Sneyp, kabus Xoqvarts, nəhəng Xaqrid, Einalej güzgüsü təsvir edilib.**

Qeyd edək ki, Coan Roulinqin "Harri Potter və lənətlənmiş uşaqlar" adlı səkkizinci kitabı bu ilin iyul ayının sonlarında işıq üzü görüb. Ənənəvi janrda yazılmasına baxmayaraq oxucuların böyük marağına səbəb olan kitab, Britaniyada bir həftə ərzində fantastik miqdarda satılıb.

# Fredrik Beqbeder Ukrayna forumuna galacak

**Məşhur fransız yazıçısı Frederik Beqbeder Ukraynanın Lvov şəhərində sentyabrın 15-18-də keçiriləcək 23-cü naşirlər forumuna qatılacaq. Tədbir zamanı yazıçı bir çox pərəstişkarları ilə də görüşəcək, həmçinin özünün "Dövrün nəsli ilə söhbətlər" kitabını təqdim edəcək. Səfər zamanı yazıçının avtoqraf-sessiyası və iştirakçılarla görüşü də nəzərdə tutulub. Tədbir təşkilatçılarının sözlərinə görə, onlar forumdan sonra təşkil olunacaq gecədə aparıcılıq etməsi üçün yazıçıyla danışıqlar aparırlar.**

Qeyd edək ki, Frederik Beqbeder müasir fransız ədəbiyyatının ən parlaq yazıçılarından hesab edilir. Onun məşhur və ən çox oxunan əsərləri arasında "99 frank", "Sevgi üç il yaşayır", "Fransız romanı", "Una və Selincer" romanlarının adlarını çəkmək olar.

**Hazırladı: NARINGÜL**



# Argentina məhkəməsi Federiko Lorkanın ölüm səbəbini araşdırır

**Argentina məhkəməsi ispan şairi və dramaturqu Federiko Qarsia Lorkanın ölümünün səbəblərini araşdırmağa başlayıb. 1898-ci ildə anadan olmuş Lorka 1936-ci ildə İspaniyada başlanan Vətəndaş müharibəsi zamanı ölüb. Bu barədə yerli mətbuata tarixi abidələrin bərpası üzrə ispan assosiasiyası olan ARMH məlumat verib. Təşkilatdan bildiriblər ki, ölümün səbəbini dəqiqləşdirmək üçün daha geniş araşdırmaya ehtiyac var. Jurnalistlərlə söhbətində ARMH-nın rəhbəri Emilio Silva bildirib ki, artıq prosesi başlamaq üçün ispaniyalı hüquqşünas Serviniyə sorğu göndərilib. Assosiasiya bu ilin aprel ayında Argentina məhkəməsinə iddia ilə müraciət edib. Servini artıq bir neçə ildir ki, ispan diktatoru Fransisko Frankonun (1892-1975) hakimiyyəti dövründə törədilmiş cinayət işlərini araşdırmaqla məşğuldur. 2010-cu ildə hərbi rejimin qurbanlarının qohumları Argentina məhkəməsinə müraciət etsə də 1977-ci ildə verilən amnistiya səbəbindən onların iddiası rədd edilmişdi.**

Xatırladaq ki, 2009-cu ildə İspaniyada birinin Qarsia Lorka olduğu ehtimal edilən iki qardaşın qəbri açıldı. Lakin ehtimallar özünü doğrultmadı, Lorkanın nəşinin qalıqları tapılmadı. Sonralar qəbri açmağa icazə verən ispan hakimi Baltazar Qarsona qarşı vəzifə səlahiyyətlərini aşma ittihamı irəli sürüldü.

Əsas versiyalara görə, Lorka 1936-cı il avqustun 18-də Vətəndaş müharibəsi başlayan zamanı İspaniyada solçulara olan rəğbətinə görə faşistlər tərəfindən güllələnib. Bundan sonra 40 il ərzində general Frankonun ölümünə qədər onun kitablarına İspaniyada qadağa qoyulub.

# Oxucuların nəzərinə




Tərcümə Mərkəzinin nəşr etdiyi (Xuan Rulfo – "Pedro Paramo", Matilda Urrutia – "Pablo Nerudayla yaşanan ömür", "Latın Amerikası romanı", "Xilas yolunun yolçuları", "Bəşəri poeziya", Ernest Heminquey – "Qadınsız kişilər", Akutaqava Rünoske – "Tanrıların istehzası", Jasmina Mixayloviç – "Xəzər dənizinin sahillərində", "Serbcə-Azərbaycanca lüğət", "Sözün Aydını", Oljas Süleymenov – "Az-Ya", "Candles (101 verses)" (şeir antologiyası), "Çexovdan Markesə qədər", "Modianonun seçilmiş əsərləri", "Boliviya gündəliyi", "Bizim həyatımız - bir şeh damlası" "7 pyes", Nəcib Məhfuz - "Bildirçin və payız") kitabları şəhərin aşağıdakı kitab mağazalarından əldə edə bilərsiniz.

- Akadem. Kitab mağazası
- Kitab klubu mağazası
- Akademiya Kitab Mərkəzi
- Kitabevim.Az mağazası
- (28 may metrosu ətrafındakı kitab mağazaları)